

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Böyük yazıçı ömrü - Mir Cəlal Paşayev



4

№ 070 (6753)

SƏS

26 aprel 2023-cü il.
Qiymәti 60 qәpik

# Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə!




2

**İLHAM ƏLİYEV: "Sofiyada imzalanan memorandum enerji təhlükəsizliyi baxımından olduqca vacib və vaxtında atılmış addımdır"**

# Laçın-Xankəndi yolu: Zəfərdən Zəfərə...



8

## Nüvə dilemması: təhlükəli enerji, yoxsa enerji təhlükəsizliyi



5

## Jurnalistlərlə bağlı yeni qərara media kapitanlarının BAXIŞI



10

## Fransızsayağı nonsens



15



16

## Bir gündə yol qəzalarında 4 nəfər ölüb

## Mədəniyyət zəhərlənməsi



12

# Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə!

## İLHAM ƏLİYEV: "Sofiyada imzalanan memorandum enerji təhlükəsizliyi baxımından olduqca vacib və vaxtında atılmış addımdır"




Bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. İstər 2020-ci il sentyabrın 27-nə kimi, istərsə də 27 sentyabrdan bu günə kimi regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Məhz bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır, həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Azərbaycanın mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməklə bu sahədə geniş təcrübəyə malik bir dövlətdir.

Qeyd edək ki, Avropada cərəyan edən hadisələr səbəbindən enerji böhranının yaşandığı bir dövrdə Azərbaycanın "köhnə qitə" üçün əhəmiyyəti getdikcə çoxalır. Bir neçə il bundan əvvəl Cənub Qaz Dəhlizinin istismara verilməsi ölkəmizi Avropanın enerji təminatında mühüm aktora çevirib. Hazırda Avropa Azərbaycanla münasibətlərə xüsusi diqqət yetirir.




### İKİ ÖLKƏ ARASINDA ƏLAQƏLƏRİN GÜCLƏNDİRİLMƏSİNDƏ TƏBİİ Kİ, QARŞILIQLI SƏFƏRLƏR MÜHÜM ƏHƏMİYYƏT DAŞIYIR

Bu, bir reallıqdır ki, ölkələr arasında əlaqələrin gücləndirilməsində təbii ki, qarşılıqlı səfərlər mühüm əhəmiyyət daşıyır. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin səfərləri və Bolqarıstan Respublikasının dövlət və hökumət başçıları, müxtəlif rəsmi nümayəndə heyətlərinin mütəmadi səfərləri deyilənlərin təsdiqidir. Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Bolqarıstana sayca beşinci səfəridir. Ümumilikdə Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Bolqarıstanla ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi ölkəmizin xarici siyasətinin vacib istiqamətlərindən biridir. Bu mənada Azərbaycan ilə Bolqarıstan arasında münasibətlər hər zaman yüksək səviyyədə olub və müsbət dinamikası ilə seçilib. Dövlətlərarası əlaqələrimizin zəngin tarixi var. Ölkələrimiz arasında diplomatik münasibətlər 1992-ci il iyunun 5-də qurulub.

Xatırlatmaq yerinə düşər ki, 1995-ci ildə ümummilli lider Heydər Əliyev Bolqarıstan Respublikasının Prezidenti Jelyu Jelevin dəvəti ilə Sofiyaya rəsmi səfər edib. Həmin səfər zamanı iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında saziş imzalanıb. Dövlətlərarası əlaqələrimizə təkan vermiş bu səfərdən sonra Azərbaycan-Bolqarıstan əlaqələri yüksələn xətlə inkişaf edib. Təbii ki, bu səfər ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələri daha da inkişaf etdirəcək və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığı gücləndirməyə töhfə verəcək. Səfər çərçivəsində ikitərəfli münasibətlərin gündəliyində yer alan aktual məsələlərin müzakirəsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev bolqarıstanlı həmkarı ilə təkbətək və geniş tərkibdə görüş keçirib. Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Bolqarıstanla ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi ölkəmizin xarici siyasətinin vacib istiqamətlərindən biridir. Bu mənada, Azərbaycan ilə Bolqarıstan arasında münasibətlər hər zaman yüksək səviyyədə olub və müsbət dinamikası ilə seçilib. Qarşılıqlı hörmət və etimad üzərində qurulmuş Azərbaycan-Bolqarıstan əlaqələri ötən dövr ərzində iqtisadi, siyasi, enerji, humanitar və digər sahələrdə dinamik şəkildə inkişaf edib.



### BOLQARISTAN AZƏRBAYCANI CƏNUBİ QAFQAZDA VƏ QARA DƏNİZ REGİONUNDA PRİORİTET, STRATEJİ VƏ ETİBARLI TƏRƏFDAŞ HESAB EDİR

Azərbaycan bu gün Bolqarıstanla dostluq və əməkdaşlıq əlaqələrinin gücləndirilməsində maraqlıdır. Bolqarıstan da Azərbaycanı Cənubi Qafqazda və Qara dəniz regionunda prioritet, strateji və etibarlı tərəfdaş hesab edir.

Və bu gün Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 25-də Bolqarıstan Prezidenti Rumen Radevin rəsmi dəvəti əsasında həyata keçirilən bu səfər ölkələr arasında arasında diplomatik münasibətlərin qurulmasının 31-ci ildönümünə təsadüf edir.

Belə ki, səfər zamanı hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Sofiya şəhərinin hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bolqarıstanın Baş nazirinin iqtisadi siyasət üzrə müavini, nəqliyyat və kommunikasiya naziri Hristo Aleksiev, Prezidentin xarici əlaqələr üzrə katibi Roussi İvanov və digər rəsmi şəxslər qarşılayıblar. Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstan Prezidenti Rumen Radev ilə təkbətək görüşü olub. Həmçinin, Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Rumen Radev Sofiyada SOCAR-ın Bolqarıstandakı ofisinin açılış mərasimində iştirak ediblər.

Həmin gün Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev imzalanma mərasimində iştirak ediblər.

Anlaşma Memorandumunu Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Bolqarıstanın energetika naziri Rosen Hristov, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku və Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman imzalayıblar.

İmzalanma mərasimində Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun videomüraciəti dinlənilib.

Mərasimdə Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Bolqarıstanın energetika naziri Rosen Hristov, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku, Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman çıxış etdiblər. Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Rumen Radev çıxış ediblər.

### BOLQARISTAN VƏ AZƏRBAYCAN, SADƏCƏ, STRATEJİ TƏRƏFDAŞ DEYİL, EYNİ ZAMANDA, İKİ DOSTDUR

Sofiyada Bolqarıstanın "Bulgartransgas", Rumıniyanın "Transgas", Macarıstanın FGSZ, Slovakiyanın "Eustream" və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumunun imzalanması mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışı zamanı deyib ki, Bolqarıstan və Azərbaycan arasında yüksək səviyyəli qarşılıqlı səfərlər ölkələr arasında əməkdaşlığın səviyyəsini, siyasi dialoqun dinamikasını göstərir. "Bu, həm də onu göstərir ki, Bolqarıstan və Azərbaycan sadəcə strateji tərəfdaş deyil, eyni zamanda, iki dostdur"", - Prezident İlham Əliyev vurğulayıb.

Ardı Səh. 3

Əvvəli Səh. 3

# Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə!

## İLHAM ƏLİYEV: "Sofiyada imzalanan memorandum enerji təhlükəsizliyi baxımından olduqca vacib və vaxtında atılmış addımdır"

### BU TƏŞƏBBÜS ENERJİ RESURSLARININ DAHA DA ŞAXƏLƏNDİRİLMƏSİ VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ BAXIMINDAN ÇOX VACİB ADDIMDIR VƏ OLDUQCA VAXTINDA ATILMIŞ ADDIMDIR

"Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru layihəsi Azərbaycanın Avropaya qaz tədarükü coğrafiyasının genişləndirilməsini mümkün edib". Bunu Sofiyada Bolqarıstanın "Bulgartransgas", Rumıniyanın "Transgas", Macarıstanın FGSZ, Slovakiyanın "Eustream" və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumunun imzalanması mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib.

Prezident qeyd edib ki, Anlaşma Memorandumunun imzalanması enerji təhlükəsizliyi baxımından olduqca vacib və vaxtında atılmış addımdır: "Bu təşəbbüs enerji resurslarının daha da şaxələndirilməsi və enerji təhlükəsizliyi baxımından çox vacib addımdır və olduqca vaxtında atılmış addımdır. 6 ay öncə mən Bolqarıstana rəsmi səfər etmişdim və 6 ay sonra geri qayıtmışam. Biz eyni zamanda, Bolqarıstanla interkonnekter layihəsinin inaqurasiya mərasimində iştirak etdik. Bu layihə Azərbaycanın Avropada milli qaz tədarükü coğrafiyasının genişlənməsini mümkün etdi və bu layihə eyni zamanda, artıq Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə yardım edir".












### Aİ ÖLKƏLƏRİNİN ÜÇDƏ BİRİ AZƏRBAYCANIN STRATEJİ TƏRƏFDAŞIDIR

Anlaşma Memorandumunun imzalanması mərasimində Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Avropa İttifaqı ölkələrinin üçdə biri Azərbaycanın strateji tərəfdaşıdır. Dövlət başçısının sözlərinə görə, bu gün Sofiyada imzalanan Anlaşma Memorandumu ilə Azərbaycanın Avropa ölkələrinə daha çox qaz ixrac edəcək ki, bu da ittifaqın enerji təhlükəsizliyinin gücləndirilməsinə töhfə verəcək: "Bu gün imzalanan Anlaşma Memorandumu Avropanın enerji təhlükəsizliyini gücləndirəcək və Azərbaycanın bir çox Avropa ölkəsinə daha çox qaz ixrac etməsinə imkan verəcək . Bu gün artıq burada Avropa Komissiyasının enerji komissarı xanım Kadri Simson, eləcə də Avropa Komissiyasının digər rəsmiləri və digər dostlar tərəfindən də qeyd edildiyi kimi, Azərbaycan Avropanın etibarlı tərəfdaşıdır və bu sadəcə enerji sahəsində deyil, bir çox digər sahələrdə də belədir. Həmçinin sizə bildirmək istərdim ki, Azərbaycan Avropa İttifaqı üzvü olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında razılaşma və bəyannamələr imzalayıb və qəbul edib. Beləliklə, bu o deməkdir ki, Aİ ölkələrinin üçdə biri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox vacib gələcəyi var".

### İLİN SONUNADƏK MACARISTAN VƏ SLOVAKİYA DA AZƏRBAYCANDAN QAZ İDXAL EDƏN ÖLKƏLƏRİN SIRASINA QOŞULA BİLƏR

"Azərbaycan qaz tədarük etdiyi ölkələrin sayını 6 ölkədən ən azı 10 ölkəyə çatdıracaq". Bunu Anlaşma Memorandumunun imzalanması mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib.

Dövlət başçısının sözlərinə görə, Azərbaycan Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan və İtaliyaya, bu ildən başlayaraq isə Rumıniyaya təbii qaz ixrac edir, ilin sonunadək isə Macarıstan və Slovakiya da Azərbaycandan qaz idxal edən ölkələrin sırasına qoşula bilər: "Bütün zəruri interkonnektorlar yerində olarsa, biz ilin sonunadək Macarıstan və Slovakiyaya qaz tədarükünə başlamağı planlaşdırırıq. Biz Albaniya ilə yerli qaz paylayıcı sisteminin tikintisi ilə bağlı danışıqlar prosesindəyik. Çünki Cənub Qaz Dəhlizi Albaniya ərazisindən keçir. Həmçinin "Həmrəylik Halqası" üzvü olaraq Slovakiya da əminəm ki, tezliklə bizim enerji sahəsində tərəfdaşımız olacaq. Biz qaz tədarükümüzün coğrafiyasını genişləndirərək 6 ölkədən ən azı 10 ölkəyə çatdıracağıq. Mən "ən azı" dedim, çünki düşünürəm ki, bu hekayənin sonu deyil, biz Avropa qaz bazarındakı mövcudluğumuzu daha da genişləndirməyi planlaşdırırıq".

Anlaşma Memorandumunun imzalanması mərasimində çıxışı zamanı Prezident İlham Əliyev deyib ki, Azərbaycan 27 ildən çoxdur ki, Avropanın etibarlı xam neft tədarükçüsüdür: "Mən Bolqarıstan Prezidenti cənab Radevin bu möhkəm tərəfdaşlar komandasının yaradılması təşəbbüsündəki xüsusi rolunu vurğulamaq istərdim. Əminəm ki, "Həmrəylik halqası" bizim birgə planlarımızın həyata keçirilməsində vacib rol oynayacaq. Mən həmçinin sizə bildirmək istərdim ki, təbii qaz Azərbaycanın Avropaya ixrac etdiyi yeganə enerji məhsulu deyil. Biz 27 ildən çoxdur ki, etibarlı xam neft tədarükçüsüyük, elektrik enerjisi də bizim ixracımızın bir hissəsidir", - Prezident İlham Əliyev qeyd edib.

### BİZİM "YAŞIL ENERJİ" İXRACIMIZIN ƏSAS İSTİQAMƏTİ ƏLBƏTTƏ Kİ, AVROPADIR

Anlaşma Memorandumunun imzalanması mərasimində Azərbaycan Prezidenti deyib ki, Azərbaycanın "yaşıl enerji" ixracının əsas istiqaməti Avropadır: "Bildirmək istərdim ki, üç önəmli enerji infrastrukturu layihəsinin - biri Xəzər dənizindən Aralıq dənizinə, digəri isə Xəzər dənizindən Qara dənizə olmaqla iki neft kəmərinin və 3 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizi layihəsinin uğurla tamamlanmasından sonra biz Azərbaycanın alternativ enerji istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində işləyirik. Alternativ enerji sahəsində aparıcı beynəlxalq şirkətlər 25 geqavatdan çox alternativ enerji istehsalı üçün Azərbaycanla müqavilələr və anlaşma memorandumları imzalayıblar".

İlk külək və günəş enerjisi stansiyalarının tikintisi ilə bağlı dövlətimizin başçısı bildirib ki, artıq bu işlər başlayıb. "Azərbaycanda alternativ enerjisinin proqnozlaşdırılan potensialı Xəzərin Azərbaycan sektorunda 157 geqavat olmaqla ümumilikdə təxminən 200 geqavatdır. Bizim "yaşıl enerji" ixracımızın əsas istiqaməti əlbəttə ki, Avropadır", - Prezident İlham Əliyev qeyd edərək Azərbaycanın aktiv enerji diplomatiyasını və meqalayihələr həyata keçirilməsini davam etdirdiyini vurğulayıb.

Bütün bunlar onu deməyə əsas verir ki, dərin köklərə malik Azərbaycan-Bolqarıstan əlaqələri bundan sonra daha da genişlənəcək və dərinləşəcəkdir. Hər iki ölkə rəhbəri bu səfərin intensiv qaydada aparılan siyasi dialoqa töhfə verəcəyinə, o cümlədən həm enerji təhlükəsizliyi, həm də qarşılıqlı maraq doğuran bütün digər sahələrdə əməkdaşlığı daha da genişləndirəcəyinə və inkişaf etdirəcəyinə əminliyini ifadə etdilər.

**RƏFİQƏ KAMALQIZI**

## "Dostluq münasibətlərimiz hərbi sahədə uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Gürcüstanın müdafiə nazirini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzeni qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyi vurğulandı.

Bu ilin aprelində Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin ölkəmizə səfəri xatırlandı, səfər zamanı əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd olundu. Dövlətimizin başçısı və Gürcüstanın müdafiə naziri əməkdaşlığımızın perspektivlərini, regional təhlükəsizlik məsələlərini müzakirə etdilər.



# Böyük yazıçı ömrü - Mir Cəlal Paşayev



Azərbaycan ədəbiyyatında hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınan və elmin, ədəbiyyatın, təhsilin inkişafında misilsiz xidmətlər göstərən xeyirxah insan, görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayev əli qələm tutan gündən ömrünün sonuna qədər həm bədii ədəbiyyat, həm də ədəbiyyatşünaslıq sahəsində eyni həvəs və coşqunluqla, yorğunluq bilmədən çalışmış, zəngin irsin müəllifinə çevrilmişdir. Mir Cəlal həm gözəl hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınır, həm ədəbiyyatımızın yaradıcılarından biri, həm də gözəl ədəbiyyatşünas alim kimi qiymətləndirilir. Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur. Sonralar ailəsi Gəncə şəhərinə köçmüş, ibtidai təhsilini burada almış, uşaqlıq və gənclik illərini bu şəhərdə keçirmişdir. 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuş, oranı bitirdikdən sonra Gədəbəy 7 illik məktəbinə müəllim göndərilmişdir. 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır. 1930-1931-ci illərdə Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində oxumuş, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitunun aspiranturasında təhsilini davam etdirmiş, 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi vəzifəsinə götürülmüşdür. 1936-1941-ci illərdə Pedaqoji İnstitutda və Dövlət Universitetində müəllimlik etmişdir. Mir Cəlal 1940-cı ildə ”Füzulinin poetik xüsusiyyətləri” adlı əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə ”Azərbaycanda ədəbi məktəblər” əsərinə görə filologiya elmləri doktoru, alimlik dərəcəsi almışdır. Görkəmli nasir Mir Cəlal yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünəməxsus yer tutur. Mir Cəlal ədəbiyyatımızda müxtəlif problemləri işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır.

**ONUN ROMANININ HƏR BİR SÖZÜ ÖZ AVTOBİOQRAFİYASININ BİR HİSSƏSİ KİMİ GÖRÜNÜR**

Mir Cəlal bədii yaradıcılığa 1928-ci ildən başlamışdır. İlk hekayə və oçerkləri 1930-cu ildə çap olunmuşdur. İlk hekayə və oçerkləri ”Qızıl Gəncə”, ”Ədəbiyyat cəbhəsində”, ”Hücum” jurnallarında və ”Gənc işçi” qəzetində dərc olunmuşdur. Dövrün ruhuna uyğun olaraq ”Sağlam yollarda” adlandırdığı ilk oçerklər kitabı 1932-ci ildə çap olunmuşdur. O, ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. Mir Cəlal diqqətəlayiq romanlar müəllifi kimi də tanınmışdır. ”Dirilən adam” və ”Bir gəncin manifesti” romanları yazıçının dəyərli əsərlərindəndir. ”Bir gəncin manifesti” Mir Cəlal yaradıcılığının bütün gözəl keyfiyyətlərinin vəhdətidir”, deyən xalq şairi Bəxtiyar Vahabzadə bunu nəinki Mir Cəlalın, Azərbaycan nəsrinin ən gözəl nümunələrindən biri kimi qiymətləndirirdi. Sonralar Mir Cəlal Azərbaycan həyatının aktual problemlərinə həsr olumuş ”Açıq kitab”, ”Təzə şəhər”, ”Yolumuz hayanadır?” kimi romanlarını yazır. Gözəl roman ustadı kimi tanınan Mir Cəlal haqqında tanınmış ədəbiyyatşünas Jak Rıkaçev belə yazırdı: ”Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir...”

Bədii ədəbiyyatın müxtəlif janrlarına müraciət edən Mir Cəlal yaradıcılığında kiçik hekayələr xüsusi yer tutur. 1940-cı ildə Mir Cəlalın hekayələrinin rus dilinə Əziz Şərif tərəfindən tərcümə olunması gözəl bir təşəbbüs kimi qiymətləndirilməlidir. Ədibin istedadlı gənclərə olan məhəbbətini, analıq şərəfini və uşaqlara qayğı məsələsini ürəklə tərənnüm etdiyi ”Bostan oğrusu”, ”Yanlış barmaqlar”, ”Mərkəz adamı” kimi hekayələr tərbiyəvi əhəmiyyətli olduğu üçün yüksək qiymətləndirilmişdir. O, ”Pərzad”, ”Qaymaq”, ”Dost görüşü”, ”Qonaqpərəst” kimi hekayələrində Azərbaycan xalq adət və ənənələri ilə bağlı motivlərə xüsusi diqqət yetirib, hekayələrin həyat və məişətlə üzvi əlaqəsindən bəhs edir. İkinci Dünya müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orjinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Böyük vətən müharibəsi dövründə ”hər şey cəbhə üçün, hər şey qələbə üçün!” şüarı ədəbiyyatın da istiqamətini, yaradıcılıq pafosunu və inkişaf yolunu müəyyənləşdirən xarakterik əlamət oldu.

**”VƏTƏN YARALARI” HEKAYƏSİNİ OXUDUQDAN SONRA MƏN DÜŞMƏNƏ QARŞI DAHA KİNLİ VƏ AMANSIZ OLDUM”**

Müharibə illəri Mir Cəlalın ədəbi-elmi fəaliyyətində yeni səhifələr açır. Müharibənin əvvəllərində Uzaq Şərqdəki ordu hissələrinə gedən, habelə döyüşən ordunun həyatı ilə yaxından tanış olan ədib çoxlu oçerk, hekayə və publisist yazıları ilə nəzəri cəlb edir. Mir Cəlal ”Yollar”, ”Axşam səfəri”, ”Atlı”, ”Snayper” hekayələrinin mövzusunu bilavasitə cəbhə həyatından, müharibə səhnələrindən götürmüş və səciyyəvi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmağa çalışmışdır.Ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orijinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Səməd Vurğun Onun əsərlərinin təsir gücündən yazarkən belə qeyd edir: ”Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, ”Vətən yaraları” hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum”.Ədəbi fikrimizin tarixinə Mir Cəlal, həmçinin, görkəmli tənqidçi-ədəbiyyatşünas kimi də daxil olmuşdur. O, Azərbaycan ədəbiyyatının 1975-ci illərədək keçdiyi yola, sənətkarlıq, realizm və xəlqilik axtarışlarına, ədəbi prosesin mənzərəsinə, janrların vəziyyət və imkanlarına dair məzmunlu çıxışlar edir, məqalələr yazır, tədqiqat işləri aparırdı.Mir Cəlal sadəcə bir edib-müəllim deyildir, O, alimdir, ədəbiyyatşünasdır, elmi kadrlar yetişdirmək də onun çoxcəhətli fəaliyyətinə daxildir. Müasir dövrümüzdə Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin ədəbi və ictimai fəaliyyəti, yaradıcılıq xüsusiyyətləri, əsərlərinin yaranma tarixi öyrənilir, Onun irsi gənc nəslə çatdırılır. Təsadüfi deyildir ki, bu gün təkcə Azərbaycanda deyil, Onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri müxtəlif dillərdə nəşr edilərək maraqla oxunur.Azərbaycan Respublikası Prezidentinin ”UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında” 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilmişdir. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir.Mir Cəlal Paşayevin 100 illiyinin UNESCO səviyyəsində qeyd edilməsi, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür. İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, Onun həm də xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və Onun mərhəmət sevgisi dünya durduqca yaşayacaqdır.

*Zümrüd BAYRAMOVA*



## İctimai təşkilatlar akademik Zərifə Əliyevanın 100 illiyini qeyd ediblər

Aprelin 25-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi Bakıda, Abşeron mehmanxanasında akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirib.



Tədbirdə müxtəlif dövlət orqanlarının nümayəndələri, deputatlar, icimai təşkilatların təmsilçiləri, jurnalistlər iştirak edib. Tədbir akademik Zərifə Əliyevanın xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Çıxış edən Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva akademik Zərif Əliyeva şəxsiyyəti və fəaliyyəti barədə məlumat verib. O qeyd edib ki, Zərifə xanım öz elmi fəaliyyəti ilə təkcə respublikada yox, həm də bütün SSRİ-də və dünyada özünə rəğbət qazanıb.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri və Müşahidə Şurasının sədr müavini Vüsal Quliyev akademik Zərifə Əliyevanın Azərbaycan tibbinə və ümumilikdə tibb elminə verdiyi töhfələri qeyd edib, həmçinin onun humanitar sahədə aktiv çalışan bir şəxsiyyət və nümunəvi bir qayğıkeş ana obrazı olduğunu diqqətə çatdırıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova akademik Zərifə Əliyevanın sadə və səmimi həyatından söz açıb: ”O, Əziz Əliyev kimi nüfuzlu bir şəxsiyyətin qızı idi. Amma bütün bunlara baxmayaraq, özünü o qədər sadə aparır, sadə davranırdı ki, heç kəs bunu hiss eləmirdi. O, öz zəhməti, əzmi ilə elmdə zirvələrə yüksəlməyə və bir Azərbaycan qadını kimi fədakar insan olmağa nail olmuşdu.

Respublika Veteranlar Təşkilatının sədri Fatma Səttarova Zərifə xanım Əliyeva ilə bağlı xatirələrini bölüşüb: ”Biz ondan sevməyi, nümunəvi davranışı öyrənmişik. Zərifə xanımın Heydər Əliyevlə görüşləri bizə maraqlı idi. Biz onlar görüşəndə onları kənardan güdürdük. Çünki o, əsl Azərbaycan qızı kimi namusla sevməyi bilirdi”.

Daha sonra çıxışçılar akademik Zərifə Əliyeva şəxsiyyəti və irsi barədə fikirlərini bölüşüblər. Tədbirdə Zərifə xanımın fəaliyyəti ilə bağlı videorolik və fotolar nümayiş etdirilib, mahnılar səsləndirilib.Tədbir iştirakçıları Fəxri Xiyabanı ziyarət edib, görkəmli alimin qəbüstü abidəsi üzərinə gül-çiçək düzüblər.

*Elçin*

## Audiovizual Şura və MEDİA-ya yeni səlahiyyət verilib

Audiovizual Şura və Medianın İnkişafı Agentliyinə (MEDİA) yeni səlahiyyət verilib.SİA xəbər verir ki, bu, Prezident İlham Əliyevin müvafiq Fərmanında əksini tapıb.Fərmana əsasən, media subyektləri tərəfindən sağlamlığın və ətraf mühitin qorunmasına zidd olan hərəkətlərin təbliğ olunması və Qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin təqsirli olması barədə məlumatların dərc edilməsi (yayımlanması) ilə bağlı inzibati xətalar haqqında işlərə audiovizual media subyektlərinə münasibətdə Azərbaycan Respublikasının Audiovizual Şurası, digər media subyektlərinə münasibətdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi baxacaq.



# Nüvə dilemması: təhlükəli enerji, yoxsa enerji təhlükəsizliyi

## Azərbaycanda Çernobıl əlillərinə xüsusi qayğı göstərilir. Dünyanı xilas edən həqiqi qəhrəmanlar buna layiqdirlər

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*

Bəşəriyyətin atom-nüvə texnologiyasının gücü və dəhşətləri ilə tanışlığı 1945-ci ilə təsadüf edib. 2-ci dünya müharibəsində faşist Almaniyasının təslim olmasından 3 ay sonra ABŞ tərəfindən Almaniyanın müttəfiqi olan Yaponiyaya qarşı atom bombalarının tətbiqi qlobal şok effekti verdi. Avqustun 6-da və 9-da Xirosima və Naqasaki şəhərlərinə atılan 2 atom bombası bu şəhərləri yer üzündən sildi, yüz minlərlə insanı bir anda külə döndərdi, milyonlarla insanı ağır şüalanmaya məruz qoydu. Bu bəşər tarixində görünməmiş bir qırğın idi, yüz minlərlə insanın görünməyən düşmən tərəfindən öldürülməsi...



1949-cu ildə qlobal güc balansını təmin etmək üçün SSRİ-də də atom bombası yaradıldı, lakin bu bomba heç vaxt tətbiq olunmadı. Sovet İttifaqı atom texnologiyasından dinc məqsədlərlə istifadəni qarşıya məqsəd olaraq qoymuşdu və atom enerjisi əldə etmək üçün elmi işlər aparırdı. Nəhayət1954-cü ildə SSRİ-də (Obninsk şəhərində) dünyanın ilk Atom Elektrik Stansiyası (AES) işə salındı. Sonralar bu cür stansiyaların ABŞ və Avropada da tikilməsi ilə dünyada atom enerjisi bumu başladı.

Lakin 1986-cı ildə SSRİ-də tarixin ən böyük texnogen qəzasının baş verməsi bu prosesi bir qədər ləngitdi. 1986-cı ilin aprelin 26-da SSRİ-nin və dünyanın ən modern texnologiyalı stansiyası sayılan Çernobıl AES-in 4 nömrəli reaktorunda partlayış oldu. Və bəşəriyyət atom erasının növbəti dəhşətli xəbərdarlığı ilə tanış oldu.



### Çernobıl faciəsi niyə və necə baş verdi?

1986-cı il, aprel ayının 25-i. Ukrayna SSR-in Pripyat şəhəri yaxınlığındakı Lenin adına Çernobıl Atom Elektrik Stansiyasının 4 nömrəli reaktorunda elektrik cərəyanını dövrədən ayırandan sonra turbinlərin nə qədər dövr edəcəyini və bu yolla onun növbəti iş gününə hansı səviyyədə hazır olacağını müəyyən etmək üçün xüsusi test keçirilməsinə hazırlıq işi görülür...

"Qaçış rejimi" adlanan belə rejim turbogeneratorun rotorunun kinetik enerjisindən təminatçı və əsas sirkulyasiya nasoslarının stansiyanın elektrik enerjisindən məhrum olacağı təqdirdə, AES-in daxili ehtiyaclarını təmin etmək üçün istifadəsinin mümkünlüyü sınaqdan keçirilməliydi.

Belə dayandırmalar zamanı adətən qeyri-standart və ya müxtəlif proqramlar çərçivəsində avadanlığın reqlament sınaqları keçirilirdi. Bu, həm də ekstremal vəziyyətlər zamanı stansiyanın iş rejiminin saxlanması üzrə proqram təminatının formalaşdırılması üçün edilirdi. Əvvəllər də belə testlər keçirilmişdi, lakin heç bir problem yaranmamışdı. Bu dəfə elə olmadı

Saat 23.46. SSRİ-nin və dünyanın ən güclü nüvə fiziklərindən biri olan Analoti Dyatlovun tapşırığı ilə operator reaktorun gücünü 500 MVt-a salır, sonra isə sistem lokal avtomatik tənzimləmə sisteminə keçirilir.

Saat 01.00. Cəmi 24 dəqiqədən sonra dünyaya hansı fəlakətin üz verəcəyini ağlına belə gətirməyən texniki personal elektrik cərəyanını kəsir, turbinlərə gedən soyuducu su tədricən azalmağa başlayır. Reaktor vasitəsilə elektroenerji və istilik sərfiyyatının belə artımı mütləq şəkildə buxar həcmini aşağı salırdı. Buxar isə nüvə enerjisi ilə işləyən reaktorun soyuması üçün əsas şərtdir.

Bir qədər keçir, reaktora daxil olan su qızmağa başlayır. Lakin həmin su soyuq qalmalı, reaktorun ətrafındakı borularla fırlanaraq qızmalı və buxara çevrilməli idi.

Saat 01.22. Turbinlərdə su çatışmazlığı kritik həddi keçir. Operator aztəzyiqli reaktoru bağlamaq istəyir. Lakin artıq gec idi. Operator reaktorun gücünü nəzərdə tutulmuş səviyyədə saxlaya bilmir və enerji blokunun gücü 30 MVt-a düşür.

Saat 01:23. "Qaçış" enerjisinin verildiyi generatora qoşulmuş nasosların sirəti aşağı salındığından reaktor qızmağa başlayır. Reaktorun "hərarət"i maksimuma çatır və son çarə olaraq operator pultundan AZ-5 qəza söndürmə rejimi aktiv edilir.

Saat 01:24. Reaktorun içindəki nüvə yanacağı borucuqları əriyib, qrafit çubuqlar geri çəkildiyindən reaktor üzərində nəzarət imkanı itirilib, soyutma sistemləri də sıradan çıxıb. Artıq heç bir qüvvə bu dəhşətli qəzanın qarşsıını almağa qadir deyil...

Ard-arda 2 dəhşətli partlayış baş verir və reaktor darmadağın olur. Güclü zərbə reaktoru əhatə edərək onun xarici aləmlə əlaqəsinə imkan verməyən 1200 tonluq qoruyucu dəmir çəmbəri yerlə yeksan edir. Partlayışdan dərhal sonra böyük yanğın başlayır. Gecəni gündüzə çevirən güclü alovları və yuxarı buxarlanan ultrabənövşəyi radioaktiv toz kolonunu onlarla kilometr məsafədən seyr etmək mümkün idi.

### <u>"Sarkofaq" əməliyyatı:</u> dünya belə xilas edildi

Bu, atom elektrik stansiyaları tarixində indiyədək rast gəlinməmiş ən dəhşətli qəza idi, onunla necə mübarizə aparılacağı heç kimə aydın deyildi. Nə SSRİ-də, nə də dünyada belə bir praktika yox idi. Həyəcan siqnalı ilə stansiyaya üz tutan çox sayda yanğınsöndürən maşınları reaktor üzərinə da fasiləsiz su şırnaqları yönəldirdilərsə də, bu, heç bir effekt vermədi. İlk dəqiqələrdə zənn edildiyinin əksinə, bu adı yanğın deyildi. Yanğınsöndürənlər bütün gecəni mübarizə aparsalar da, reaktrodakı yanğını söndürmək mümkün olmadı, yalnız yanğının yayılmasının qarşısı alındı. Ölümcül dozada radiaktiv şüalanmaya məruz qalan yangönsöndürənlər geri çəkildi və xəstəxanaya yerləşdirildi.

Səhər saatlarından Sovet ordusunun kimyəvi mübarizə briqaları əraziyə yönəldildi, qəza idarəetmə komissiyası və operativ qərargah yaradıldı, fəlakətin böyüməsinin qarşsını almaq üçün bütün mümkün tədbirlər görüldü. Lakin reaktora yaxınlaşmaq mümkün deyildi və qəzadan əvvəl tam doldurulmuş reaktordakı nüvə yanacağının böyük həcmdə havaya buxarlanması davam edirdi.

Aprelin 27-də 50 min əhalisi olan Pripyat şəhərində və stansiya ətrafındakı qəsəbə və kəndlərlə yaşayan əhali, ümumilikdə 135 min nəfər sakin evakuasiya olunur. Onlar bir daha heç vaxt öz evlərinə dönə bilməyəcəklərini bilmirdilər

9 gün, 9 gecə 2 minə yaxın vertolyot və təyyarə minlərlə avtotexnika partlayış baş verən 4-cü blokun üzərinə fasiləsiz olaraq qum, çınqıl və digər maddələr tökürlər. Reaktora radiopultla idarə olunan sürücüsüz avtomaşınlarla müxtəlif kimyəvi materiallar da tökürlər. Şüalanma o qədər güclü idi ki, bu texnikalar da sıradan çıxdı. Ümid ancaq canlı qüvvəyə qalmışdı. Könüllülük əsasənda xüsusi qruplar yaradıldı və mübarizə davam etdi. Qısa müddətdə blokun üzərində 5 min tondan ibarət qum və çınqıl dağı əmələ gəlir.

Reaktor betona gömülür. Lakin, 130-dək Azərbaycan vətəndaşının da qatıldığı "Sarkofaq" əməliyyatı ciddi nəticə vermir, təhlükəli şüalanma yenə də davam etməkdə idi... Ən dəhşətli təhlükə isə qarşıda idi- reaktorun altındakı 200 tonluq qızmış radiaktiv kütlə qalın beton divarları əritməkdə idi və təcili qarşısı alınmasa bu radiaktiv kütlə yaxınlıqdakı su kanallarına, gölə və yeraltı sulara qarışaraq çox böyük bir əraziyə yayıla, Avropanın yarısını zəhərləyərək on miyonlarla insanı öldürə bilərdi. Kimlərsə reaktorun ətrafındakı yeraltı anbarlarda toplanmış radiaktiv sulara baş vurmalı və cəmi bir neçə dəqiqə ərzində orada müvafiq kranları axtarıb tapmalı və bağlamalı idi. 3 Sovet insanı könüllü olaraq bəşəriyyəti xilas etmək üçün ölüm mənbəyinə daldılar və göstərdikləri möcüzəvi qəhrəmanlıq sayəsində milyonları xilas etdilər. Həmin qəhrəmanlara orada abidə ucaldılıb.

ARAŞDIRMA

Ardı Səh. 6

# Nüvə dilemması: təhlükəli enerji, yoxsa enerji təhlükəsizliyi

Əvvəli Səh. 5

Partlayışdan sonra heç bir sərhəd tanımayan radioaktiv şüalanma on minlərlə kvadrat kilometr məsafəni öz təsiri altına almışdı. Hava axınları radiaktiv buludların əvvəl şimal və qərb, daha sonra isə cənub və şərq istiqamətində də yayılmasını təmin etdi. Avropa qitəsinin şərqində bütün canlı aləmə güclü zərbə dəydi, nəinki insanlar, bitkilər və heyvanlar da güclü şüalanmadan, radioaktiv tozdan zərər çəkdi.

Çernobıl əlili Vüqar Xəlilov o günləri belə xatırlayır: "Üzərimizdə şüaölçən cihaz var idi. Lakin ona heç ehtiyac da yox idi, havada şüalanmanın səviyyəsi o qədər yüksək idi ki, şüaları gözlə görürdük. Çəkilirdik kölgəyə, gün düşən tərəfə baxırdıq. Bənövşəyi, qəribə rənglər görürdük. Havada, suda, torpaqda-hər yerdə şüa vardı ".

## "Çernobıl"ın sirri əbədi olaraq betona gömüldü

İlk günlərdə ölkə rəhbərliyi qəzanın səviyyəsini gizlətməyə çalışdı. Sovet rəhbərliyi qısa müddətdə radiasiyanın azalacağına və nəticələrin aradan qaldırılacağına ümid edirdi. Əhali arasında ajiotaj yaratmaq istəmirdilər.

Lakin artıq bölgədə yaşayanlar güclü şüalanmanı aşkar hiss etmiş, SSRİ-nin hər yerində Çernobılda baş verən faciədən xəbər tutmuşdular. Radiaktiv bulud az qala bütün Avropanı bürümüşdü. Amerika peykləri də qəzanı qeydə almışdılar.

Nəhayət Sovet İttifaqının rəhbəri Mixail Qorbaçov Çernobılda AES-də atom qəzası baş verdiyini Mərkəzi Televiziyadan etiraf etdi. Bu açıqlamadan sonra AES ətrafında yaşayan əhali kütləvi şəkildə ərazini tərk etdi.

Ölən və yaralananlarla bağlı müxtəlif rəqəmlər səslənir. Qəza zamanı 2 nəfər həlak oldu, sonrakı günlərdə ölənlərin sayı 30-u ötdü. Sonrakı dövrdə isə şüalanmadan ölənlərin sayı artdı.

Qəzanın nəticələrini aradan qaldırmaq üçün bütün mümkün tədbirlər görüldü, 7 min azərbaycanlı da daxil olmaqla 600 mindən artıq Sovet insanı qəhrəmancasına mübarizə apardı. Onların çoxu şüalanmaya məruz qalaraq müxtəlif xəstəliklərə tutuldular, lakin dünyanı qorxunc bir təhlükədən xilas etdilər.

Çernobıldakı qəzanın əsl səbəbi haqda müxtəlif versiyalar var. AES-in 4-cü reaktorundakı qəzanın operatorun səhvi, sınaqların düzgün hesablanmaması, reaktora kürə ildırımının düşməsi, SSRİ-ni çökdürmək üçün Qərb dövlətlərinin stansiyaya yerləşdirdiyi əməkdaşın təxribatı

Lakin şahidlərin və mütəxəssislərin çoxu texniki nasazlığa ya da operatorun səhvinə inanmır. Versiyalar arasında öncədən stansiyaya yerləşdirilmiş xarici xüsusi xidmət orqanlarının adamının fəlakətə qəsdən səbəb olduğu da var. Məhz bu hadisədən sonra SSRİ böyük itkilər verdi və fürsətdən yararlanan ABŞ başı daxili problemə qarışmış Sovet İttifaqının beynəlxalq mövqelərini zəiflətdi. Üstəlik, AES yaxınlığındakı çox nəhəng radar antenaları divarı Avropa və Amerika üzərində "quş uçurtmurdu" və bu sistem də AES-dən qidalanırdı, qəza ilə birgə o da sıradan çıxdı. Bu da versiyanı gücləndirən əsas arqumentlərdən sayılır.

Baş operator, SSRİ-nin və dünyanın ən güclü nüvə fiziklərindən olan Anatoli Dyatlovun sözlərinə görə, gecə yarısına yaxın o, stansiyanın ərazisində reaktor qrafitinin aşkarlanmasından sonra reaktorun məhv olacağına əmin olub. Bu məlumat 4-cü enerji blokunun növbə nəzarətçilərindən biri Yuri Trequbun xatirələri ilə də təsdiqlənir. Bu da diversiya versiyasını gücləndirir.

Əsl sirr isə, AES-in heç vaxt açılmayacaq beton sarkofaqı altında əbədi olaraq gömülüb.

## "Kabuslar şəhəri"ndə əbədi donmuş həyat

SSRİ-yə bu qəza çox baha başa gəldi-AES-lərin verdiyi qazancdan da xeyli baha. Hazırda Çernobılın 30 kilometr radiusundakı ərazilər ölü zona hesab edilir və orada insanların yaşaması qəti qadağandır

5 milyon hektara yaxın torpaq radioaktiv şüalanmaya məruz qaldığı üçün indiyədək istifadəsiz qalıb. Qəzanın fəsadlarının aradan qaldırılması üçün Çernobıl AES ətrafında onlarla kiçik qəsəbə və kənd məhv olunub. 1970-ci ildə salınmış müasir və gözəl Pripyat şəhəri isə kabuslar şəhərinə çevrilib.

İ.Siqsqordun "Palle dünyada tək-tənha" adlı nağılının motivləri əsasında çəkilmiş Sovet multfilmi mənə həmişə Pripyat şəhərini xatırladır. Balaca Palle yuxuda görür ki, şəhərdə hamı yoxa çıxıb, küçələrdə evlərdə heç kim yoxdur, həyat donub  Çernobıldan çəkilmiş sənədli filmlər eyni mənzərələri nümayiş etdirir və bu səhnələr adamı dəhşətə gətirir.

Boş, adamsız, sakit, səliqəli və müasir bir şəhər. Sanki həyat bir anlığa dayanıb, insanlar harasa yoxa çıxıblar. Evlərin çoxunun qapısı açıqdır, stolun üstündə yeməklər, bağçalarda oyuncaqlar, məktəblərdə dərs ləvazimatları, zovod-fabriklərdə istehsal avadanlığı, küçələrdə nəqliyyat, parklarda karusellər  hər şey əbədi olaraq donub qalıb...

Şəhərdə və ətrafında yüksək radiasiyalı minlərlə vertolyot, müxtəlif avtotexnika və traktorların "əbədi paradı"nı görmək olur. "Kabuslar şəhəri"ndə insan qismən təhlükəsiz halda bir də ancaq 300 ildən sonra yaşaya biləcək. Bu ərazi ancaq 50 min ildən sonra tam təhlükəsiz hala isə gələcək...

Bu qəza bəşəriyyətin taleyinin hər an böyük təhlükə altında olduğu barədə hələ ötən əsrin ortalarında alimlər tərəfindən edilən xəbərdarlığın necə vacib olduğunu bir daha ortaya qoydu. Lakin tarix göstərdi ki, insanlar bu "dərs"dən nəticə çıxara bilməyiblər.

## AES tərəfdarları üçün növbəti "soyuq duş"

2011-cü ildə martın 11-də Yaponiyada zəlzələ və sunami sonrası baş vermiş "Fukusima" AES qəzası "Çernobıl"ı təkrarladı. "Fukuşima"nın radiasiyası yeraltı sulara və Sakit okeana da qarışdı. Qəzadan sonra AES-in ətrafındakı dəniz sularında radiasiya 10 min dəfə artdı. Milyonlarla insan, yüz milyonlarla canlı radiaktiv şüalanmaya məruz qaldı. Güclü şüalanmadan 1 milyonadək insanın xərçəngdən öləcəyi güman edilir. "Fukusima"da ciddilik risk səviyyəsini aşaraq ən yüksək səviyyəyə- 7 bala çatdı. Qəzadan sonra havaya buraxılan radioaktiv tullantıların həcmi Çernobıl AES-də baş vermiş analoji qəzadan 20 dəfə çox idi.

Bəlkə digər ölkələri anlamaq olardı, amma 1945-ci ildə ABŞ-ın atdığı 2 atom bombasından sonra nüvə radiasiyanın dəhşətli nəticələrini görmüş, güclü şüalanmadan yüz minlərlə qurban vermiş yaponlar üçün AES tikməyi bağışlanmaz səhv saymaq olar...

Tarix göstərdi ki, ən yüksək texnoloji imkanlara və ən güclü alimlərə malik olan ölkələr belə AES qəzasının öhdəsindən gələ bilmədi. Ümumiyyətlə, Yaponiyadakı qəza AES tərəfdarları üçün növbəti "soyuq duş" oldu. Halbuki, Çernobıl qəzasını "unudan" bəzi alimlər AES-lərin vacibliyini cidd-cəhdlə müdafiə edirdilər.

"Fukusima" qəzası AES-in xidmətindən istifadə edən ölkələrin hamısında ciddi təşvişlə qarşılandı. Bəzi ölkələr AES-ləri bağladı, bəziləri yenilərini tikməyi dayandırdı. Lakin enerjiyə tələbatın fasiləsiz artması və iqtisadi gəlir dövlətləri "yoldan çıxarır". Görünən odur ki, bu proses "3-cü Çernobıl" faciəsinədək davam edəcək.

## Sağlam həyat və iqtisadi gəlirlər arasında seçim

Atom Elektrik Stansiyası bir və ya daha çox sayda nüvə reaktorunun yanacaq kimi radioaktiv maddələri istifadə edərək elektrik enerjisi istehsal edən stansiyadır. AES-lərin əsas yanacaq xammalı urandır. Bu elementin dünyada mövcud ehtiyatı tam hesablanmasa da, quruda və suda olan uranın 500 ilə kifayət edəcəyi ehtimal olunur.

Neft-qaz ehtiyatının isə cəmi 70 ilə kifayət edəcəyi proqnoz edilir. Üstəlik, digər enerji növlərinə görə, atom enerjisinin xeyli ucuz başa gəlməsi hökumətləri "yoldan çıxarır". Necə dəyərlər, enerji təhlükəsizliyi və iqtisadi gəlirlər əksər dövlətlər üçün ölüm-qalın məsələsinə dönüb.

Qeyd edək ki, kiçik qəzaları nəzərə almasaq, indiyədək dünyada 3 böyük atom qəzası qəza baş verib - biri ABŞ-da, biri SSRİ-də, biri də Yaponiyada. Bir neçə dəfə isə "Tanrı insanların üzünə gülüb" - qəzanın qarşısı son anda alınıb.

1978-ci ildə dünyada 200-dən artıq AES var idi. Hazırda bu rəqəm 440-a çatıb. Onlardan 300-ün istismar vaxtı keçib.

ABŞ-da 104, Fransada 59, Yaponiyada 54, Rusiyada 31, Almaniyada 19, Cənubi Koreyada 16, Kanadada 14, Ukraynada 13, İsveçdə 11, Çində 5 AES var. Amma Çində daha 5-i də inşa edilir. Fransa AES-lər vasitəsilə enerjiyə olan tələbatın 80, Litva 74, Ukrayna 47, Yaponiya 34, Ermənistan 33, İngiltərə 23, Almaniya 22, ABŞ 20, Rusiya 15 faizini təmin edir. 2030-cu ilədək isə, AES-lərin sayının azı 2 dəfə artacağı gözlənilir. Artıq 70-dən artıq ölkə atom elektrik stansiyası tikəcəyi haqda MAQATE-ni xəbərdar edib və bu siyahı genişlənməkdədir.

Bununla yanaşı, qabaqlar AES-lərə malik olan, lakin sonradan öz əhalisinin sağlamlığını və təhlükəsizliyini daha üstün tutaraq onlardan imtina edən ölkələr də var - Avstriya, Danimarka, Filippin, İtaliya, Qazaxıstan. Almaniya da AES-ləri qapatmağa hazırlaşır. Azərbaycanın hansı siyahıda olacağı hələlik tam müəyyən edilməyib. Bəs bizim atom enerjisinə nə dərəcədə ehtiyacımız var, ümumiyyətlə varmı?

## Azərbaycana atom stansiyası lazımdırmı?

Xatırladaq ki, bir vaxtlar SSRİ Nazirlər Komitəsinin qərarı ilə Azərbaycanda AES tikmək barədə layihə də hazırlanmışdı. Bu layihə çərçivəsində Nəvai qəsəbəsi yaxınlığında yer də müəyyənləşdirilmişdi və işə başlanılmışdı. Çernobıl qəzası SSRİ-nin digər respublikaları kimi Azərbaycanda da bu istiqamətdə aparılan işlərin dayandırılmasına səbəb oldu. Lakin mütamadi olaraq bu məsələ bəziləri tərəfindən aktuallaşdırılır.

Onlar hesab edir ki, nüvə texnologiyası Azərbaycana gəlməlidir Deyilir ki, ölkəmizin enerji sistemi bütünlüklə AES-ə keçsə, bunun üçün ildə 50-60 ton uran lazım gələcək. Onun sözlərinə görə, atom stansiyasında alınan enerjinin qiyməti adi yolla alınandan təqribən 2 dəfə ucuz- hər kilovat saatı cəmi 2-3 qəpiyə başa gəlir.

Lakin, atom stansiyaları yaratmaq böyük vəsait tələb edir. Məsələn, 1000 meqavat gücündə olan AES təxminən 5 milyard dollara başa gəlirsə, istilik stansiyası bundan 2 dəfə ucuzdur. Su elektrik stansiyaları isə daha ucuz başa gəlir, xeyli enerji verir, üstəlik təhlükəsiz və daimidir.

Qəza və fəlakət riski ilə yanaşı, AES-lərin radiaktiv tullantılarının konvervasiyası da ayrı bir probemdir. Bu çox ağır və bahalı bir prosesdir. Məhz bu səbəbdən Qərb dövlətləri geridə qalmış ölkələrə pul ödəyərək bu tullantılar onların ərazisində konvervasiya edirlər. Son vaxtlar isə, Ukraynada, Çernobıl AES ətrafındakı qadağan zonada Qərb dövlətlərinə məxsus böyük həcmdə radiaktiv tullantılar basdırılır. Mütəxəssislər işlənmiş nüvə yanacağı doldurulmuş və yerin dərinliyinə basdırılmış bu çənlərin 25-30 il ərzində çürüyəcəyini və həmin maddələrin qrunt sularına qarışaraq çox böyük ərazilərə yayılacağını ehtimal edirlər və həyəcan təbili çalırlar.

## İri enerji resurslarımız olduğu halda riskə dəyərmi?

Əksər mütəxəssislər hesab edir ki, enerji qıtlığı ilə üzləşən ölkələrdən fərqli olaraq, böyük neft və qaz ehtiyatları olan Azərbaycanda atom enerjisindən istifadə məsələsindən danışmağa belə ehtiyac yoxdur.

Hesablamalara görə, Azərbaycanın neft və qaz ehtiyatları ən pis halda əsrin sonunadək kifayət edəcək. Ölkə prezidenti də bunu dəfələrlə bəyan edib. Bizim perspektiv neftqaz yataqlarımız da var ki, gələcəkdə onlardan böyük həcmdə yanacaq çıxartmaq mümkündür.

Azərbaycanda AES-ın inşasına ehtiyac yoxdur və ölkəmiz enerji tələbatını neft-qaz və alternativ enerji mənbələrinin hesabına ödəyə bilər, hətta böyük həcmdə enerji ixrac da edə bilər. AES-lərdə hər an qəza baş verməə ehtimalı yüksək olur. Nüvə tullantılarının utilizasiya edilməsi də olduqca bahalı və təhlükəli bir əməliyyatdır.

Azərbaycan hələlik özünün hidroresurslarından, alternativ enerji mənbələrindən tam istifadə etmir. Külək və günəş stansiyalarının sayını çoxaltmaqla, üstəlik, kiçik SES-lər tikməklə enerji istehsalını xeyli artıra bilərik.

Ümumiyyətlə, əksəriyyət hesab edir ki, biz atomsuz da keçinərik. Təbiət bizə yerüstü və yeraltı enerji mənbələri bəxş edib ki, hələ yüz illər boyu enerji problemini yoluna qoymağa kifayət edər. Ona görə də, düşünmək lazımdır- "5-10 manat" qazanc naminə təhlükəli riskə getməyə dəyərmi? Bu sualın cavabını "Çernobılçılar" daha obyektiv verə bilərlər

## Qafqazda "3-cü Çernobıl"ın baş verməsi ehtimalı yüksəkdir

Oyanmaqda olan daha bir nüvə əjdahası isə Ermənistandadır. Azərbaycan beynəlxalq aləmdə həyəcan təbili şalmaqda davam edir ki, "Metsamor" AES bütün bölgəni fəlakətə sürükləyə biləcək böyük təhlükə mənbəyidir. Bu AES-də ən köhnə texnologiyadan istifadə edilməsi, maliyyə olmadığından modernləşdirilməməsi hər an qəza təhlükəsi gözlənildiyini deməyə əsas verir.

1977-ci ildə tikilən həmin reaktorun fəaliyyət müddəti 25 il idi və 2001-ci ildə bu müddət başa çatıb. Hazırda bu stansiya dünyada ən köhnə texnologiyada olan yeganə AES-dir. Üstəlik, yüksək seysmik zonada yerləşir. 1988-ci ildə Spitakda baş verən zəlzələ nəticəsində "Metsamor" AES də yararsız vəziyyətə düşdü. Möcüzə sayəsində Qafqazda növbəti atom faciəsi baş vermədi. Bu günə kimi bu stansiyada 100-dən artıq kiçik qəza baş verib. Azərbaycan dövləti beynəlxalq tribunalardan ən yüksək səviyyələrdə bu təhlükəni qaldırıb və həyəcan təbili çalıb. MAQATE və Avropa İttifaqının ekspertləri də bu stansiyanı ən təhlükəli obyekt kimi qiymətləndiriblər.

Qeyd edək ki, 2001-ci ildə Ermənistan Avropa Şurasına üzv qəbul edilərkən "Metsamor" AES-in fəaliyyətini dayandıracağına dair öhdəlik götürüb. Amma bu öhdəlik hələ də yerinə yetirilməyib. Beləcə, Qafqazın ortasında bir kabus dolaşmaqdadır- "3-cü Çernobıl kabusu"

Çernobıl qəzası haqda maraqlı arxiv kadrları ilə bu linkdə tanış ola bilərsiniz

https://www.youtube.com/watch?v=oICbjaUZSPU

***Elçin Bayramlı***

# Jurnalistlərlə bağlı yeni qərara media kapitanlarının BAXIŞI

***Məlum olduğu üzrə, jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə edənlər cərimələnəcək. Bu, Prezident İlham Əliyevin bu gün təsdiqlədiyi İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklikdə əksini tapıb. Məcəlləyə əsasən, jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə edilməsinə görə üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.***

***SİA mövzu ilə bağlı media nümayəndələri arasında sorğu keçirib.***

**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid:** "İnzibati Xətalar Məcəlləsinə dəyişiklik həm də media məhsullarının qanunla müəyyən edilmiş qaydada yayımına maneə yaradılmasına qarşı mexanizmlərin sərtləşdirilməsi ilə bağlıdır. İXM-də buna



görə fiziki şəxslərin iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə olunmaları nəzərdə tutulur. Qeyd edək ki, əvvəllər kütləvi informasiya vasitələrinin qanunla müəyyən edilmiş qaydada yayılmasına mane olmağa və ya dövri mətbu nəşrin tirajının pərakəndə satışına qanunla nəzərdə tutulmayan məhdudiyyətlər qoyulmasına görə fiziki şəxslərin yüz manatdan yüz əlli manatadək məbləğdə cərimələnməsi nəzərdə tutulurdu. İndi bu cərimə məbləğinin artırılması, heç şübhəsiz məsuliyyəti də artıracaqdır.

Ümumən, medianın peşəkar fəaliyyətinin tənzimlənməsi istiqamətində görülən tədbirlər yalnız bunlarla məhdudlaşmır. Hesab edirəm ki, sahəyə kompleks yanaşma var. Bu, nikbinlik doğurmaqdadır. İXM-ə dəyişiklik də nikbinlik üçün əsas verən qanunvericilik təşəbbüsüdür".

**Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli:** "Media fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar olaraq İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklərin cənab Prezident İlham Əliyev tərəfindən təsdiqlənməsi media fəaliyyəti üçün çox mühüm əhəmiyyət kəsb edir. Təklif edilən dəyişikliklər media fəaliyyətinin tənzimlənməsi, jurnalist fəaliyyətinin asanlaşdırılması və hüquqi çərçivələrinin cızılması ilə bağlı son 4 ildə aparılan islahatların məntiqi ardıcıllığı kimi qəbul edilə bilər.



Həyata keçirilən dəyişikliklər fərman və sərəncamlar, eyni zamanda qanunlardakı uyğunlaşdırmalar jurnalistlərin fəaliyyətinin asanlaşdırılması və onların hüquqi səlahiyyətlərinin tanınması kimi qeyd oluna bilər. Bunlar media fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün atılmış müsbət addımlar kimi dəyərləndirilə bilər. Belə ki, indiki dəyişikliklərdə nəzərdə tutulan elementlər əslində jurnalistlərin peşə kodeksində, eyni zamanda media haqqında qanunvericilikdə nəzərdə tutulmuş maddələrdir.

Qeyd edim ki, burada ehtiva olunan, məsələn şəxslərin təqsirsizlik presubsiyasının pozulmasına görə nəzərdə tutulan məsuliyyətlər, jurnalist fəaliyyətinə mane olmaqla bağlı məsələlər, informasiyanın verilməsinə aktiv və passiv maneələrin törədilməsi ilə bağlı olan maneələr əslində bizim media haqqında qanunvericilikdə, eyni zamanda jurnalistlərin peşə kodeksində öz əksini tapıb. Sadəcə olaraq indiyədək peşə kodeksində və media haqqında qanunvericilikdə nəzərdə tutulmuş bu məsələlərin pozulmasına görə yaranan hüquqi ölçülərdə biraz qeyri-müəyyənlik var idi. Yəni, məsələn jurnalist fəaliyyətinə maneə olmaq qanunvericiliklə yasaqlanıb. Bu prinsip pozulursa, bu şəxsləri hansı cəza gözləyir? Bununla bağlı biraz qeyri-müəyyənlik var idi. Bütün bu qeyri-müəyyənliklər dəqiqləşdirilir, konkretləşdirilir və hər kəsə öz fəaliyyətinə çəki-düzən vermək üçün bir istiqamət verilir. Konkret olaraq bu prinsiplərin pozulmasına görə yaranan hüquqi məsuliyyət eyni zamanda bu məsuliyyətə şamil olan şəxslər haqqında hansı ölçülərin götürülməsi konkretləşdirilir. İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklər burada cərimə və cəzaları konkretləşdirir. Bu da həm jurnalistlərin, həm ümumilikdə medianın fəaliyyətində və informasiya istehsalı sahəsində yeni təkmilləşdirilmələrdir. Bunlar media və jurnalistikanın inkişafına təkan vermək üçün nəzərdə tutulub. Beləliklə, artıq 4 ilə yaxındır ölkədə ümumi və media sahəsində geniş islahatlar həyata keçirilir. Bu islahatlar da onların davamıdır".

**Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, media eksperti Azər Həsrət:** "Jurnalistlərin sərbəst fəaliyyət göstərməsi, ümumiyyətlə informasiyanı toplaması, emal etməsi və yayması konstitusiya və müvafiq qanunlarla, eləcə də Azərbaycanın tərəfdar olduğu beynəlxalq konvensiyalarla tənzimlənir. Bütün bu sadaladığım sənədlərdə jurnalistlərin kənar müdaxilə olmadan öz fəaliyyətini həyata keçirməsi bir nömrəli şərt kimi irəli sürülür. Yəni, heç kim və heç bir qurum əsassız səbəblərlə jurnalistin fəaliyyətinə müdaxilə etməməlidir. Amma təəssüflər olsun ki, dünyanın hər tərəfində çox vaxt jurnalistlərin sərbəst informasiya toplamasına və ya yaymasına müdaxilələr müşahidə edilir. Bunu bir qayda olaraq yayımlanan informasiyanın ictimaiyyəti məlumatlandırması nəticəsində sirlərinin faş olacağından, yaxud da ki bəd əməllərinin faş olacağından qorxan tərəflər edir. Belə olan halda jurnalistlər əlbəttə ki, işlərini görə, vəzifələrini yerinə yetirə bilmirlər və belə şəraitdə cəzasızlığın da olması nəticədə ona gətirib çıxarır ki, cəmiyyəti məlumatlandırmaq kimi vacib vəzifəni yerinə yetirən jurnalistlər öz işlərini həyata keçirə bilmirlər. Ona görə də Azərbaycan qanunvericiliyində bu məsələ daha konkret bir şəkildə təsbit edilməli idi və artıq edildi.



İndi cənab Prezidentin imzaladığı qanuna görə artıq bundan sonrakı mərhələdə jurnalistlərin peşə fəaliyyətinə qanunsuz müdaxiləyə görə 300 manatdan 600 manatadək məbləğdə cərimə nəzərdə tutulur. Yəni, şəxslər, qurumlar, fərdlər bu və ya digər şəkildə jurnalistin öz peşə fəaliyyətini yerinə yetirməsinə müdaxilə edərsə, onun qarşısını alarsa, bu və ya digər şəkildə əngəl törədərsə cərimə ediləcək, konkret məbləğ də göstərilib. Məbləğin göstərilməsi o baxımdan diqqətəlayiqdir ki, bu məsələdə artıq gümana yer qalmır. Yəni, konkretdir. Minimum 300, maksimum 600 manatdır.

Hüquq praktikasında da belə bir məqam var ki, bir insan hansısa qanun pozuntusuna yol verərsə ilkin mərhələdə ona minimum cəza tətbiq edilir. Amma bu hallar təkrarlandığı halda ona maksimum cəza tətbiq edilir. Yəni 300 və 600 manat nə vaxt tətbiq ediləcək məsələsi də burada öz həllini tapmış olur. İlk dəfə bu cür pozuntuya yol verən şəxslərə təbii ki, minimum cərimə tətbiq ediləcək. Yəni, 300 manat. Amma bunu adət halına çevirmiş, davamlı şəkildə jurnalistlərin peşə fəaliyyətinə maneələr törədən şəxslərə qarşı cəzalar həmişə daha yüksək olacaq. Yəni ən azı 600 manat cərimə tətbiq ediləcək. Əlbəttə, düşünürük ki, bunun özü haradasa jurnalist əməyinə, medianın fəaliyyətinə daha diqqətlə yanaşmaq üçün əlavə stimul olacaq".

**"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə:** "Ümumiyyətlə, jurnalistin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə birmənalı şəkildə yolverilməzdir. Qanunlar çərçivəsində öz vəzifə borcunu və peşəsini icra edən jurnalistin fəaliyyəti düşünürəm ki, həm cəmiyyət, həm dövlət, həm hər bir fərd, eyni zamanda jurnalistika üçün çox önəmlidir. Bu, jurnalistikanın ümumiyyətlə statusuna, nüfuzuna kifayət qədər müsbət mənada təsir göstərən nüanslardan və amillərdəndir. Ona görə də düşünürəm ki, bu peşəkar fəaliyyətə qanunsuz müdaxilə yolverilməzdir və bu müdaxilənin qarşısında müvafiq qaydada lazımi addım və tədbirlərin görülməsi də önəmli hadisələrdəndir.





Jurnalist vəzifəsini yerinə yetirirsə, peşəkar qanunlar çərçivəsində öz funksiyasını yüksək səviyyədə reallaşdırmağa cəhd göstərirsə, təbii ki buna da müsbət yanaşılmalıdır.

Qanunsuz müdaxilə peşə fəaliyyətinə yolverilməzdir və bu baxımdan bu hadisədə bu halın baş verməsinə şərait yaradan, bilavasitə iştirak edən insanın müəyyən mənada qanunlar çərçivəsində adekvat münasibət bildirməsi vacibdir və cərimələnməsi müsbət bir haldır. Bu jurnalistikanın inkişafına müsbət təsir göstərəcəkdir".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Mətbuat cəmiyyətin gözgüsüdür. Yalnız azad və müstəqil mətbuatın köməyilə şəffaf cəmiyyət qura, tərəqqiyə nail ola bilərik. Bu baxımdan mətbuat nümayəndələrinin sərbəst fəaliyyəti vacibdir.



İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərin Prezident İlham Əliyev tərəfindən təsdiqlənməsini müsbət qiymətləndirirəm. Onun sözlərinə görə, yeni dəyişiklik ölkədə mətbuatın inkişafına mane olmaq istəyən adamların əl-qolunu bağlayacaq, onların məsuliyyət hissini artıracaq.

Bildiyiniz kimi, Məcəlləyə əsasən, Media məhsullarının qanunla müəyyən edilmiş qaydada yayılmasına mane olmağa görə fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə ediləcək. Əminəm ki, bu cəza növünün tətbiqi həm fiziki, həm də vəzifəli şəxsləri mediaya münasibətdə daha məsuliyyətli olmağa vadar edəcək. Nəhayət, biz jurnalistlərlə normal rəftar qaydasını öyrənməliyik".

***Ayşən Vəli***

# Laçın-Xankəndi yolu: Zəfərdən Zəfərə...



2020-ci ilin 27 sentyabrında başlanan və 10 noyabrda böyük Zəfərlə bitən İkinci Vətən Müharibəsi həm də özündən sonra əldə olunacaq yeni Zəfərlərin başlanğıcı, Zəfərlər üçün açılan yol oldu. 44 günlük müharibədə Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə düşməni yerinə oturdan, 30 il işğal altında qalan torpaqlarımızı düşməndən geri alıb ərazi bütövlüyümüzü bərpa edən Milli Ordumuz Azərbaycanın qəhrəmanlıq tarixində yeni bir səhifə açdı. Minlərlə şəhidimiz, qazimiz olsa da, biz namus məsələsini həll edə bildik, torpaqlarımızı yağı tapdağından azad etdik.

Ötən illərin hər biri, eləcə də İkinci Vətən Müharibəsindən ötən iki ildən artıq zaman yenə də sübut etdi ki, qonşun ermənidirsə, deməli, daha ayıq-sayıq olmalı, bir anı belə gözdən qaçırmamalısan. Çünki erməni tarix və zamanın dünyaya "bəxş etdiyi" üçün özünün özünə bağışlamayacağı yaranandır.

Müharibədən sonra qarşılaşdığımız bütün mənzərələr bunları deməyə əsas verir. Onların torpaqlarımıza, minillik tarixi abidələrimizə, minlərlə obyektlərə, evlərə, qəbiristanlıqlara, məscidlərimizə tutduqları divan insanlıqdan çox-çox uşaq, vəhşi bir tayfa olduqlarını sübut etdi.

### Yeni Zəfərin mübarək, Azərbaycan!

2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyannamə ilə üzərlərnə götürdükləri öhdəliklərin əksinə hərəkətləri isə həqiqətən də "erməni ki, erməni" deyimini bir daha sübut etdi. Axı erməni hara, söz vermək, sənəd imzalamaq və verdiyi sözün üstündə dayanmaq hara. Nələr etmədilər 10 noyabr Bəyannaməsindən sonra? Hansı əməl qaldı ki, əl atmayalar? Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələr daşımadılar, Rusiya Sülhməramlı Kontingentin guya ki, nəzarətinə baxmayaraq torpaqlarımızdan yenə də sərvətlərimizi daşımaqla məşğul olmadılar, minabasdırma işlərini davam etdirməklə yüzlərlə azərbaycanlının ölümünə səbəb olmadılar, sərhədlərimizdə yeni təxribatlara əl atmadılar?

Elə bütün bunların qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq aprelin 23-ü saat 12:00-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi quruldu. Bu, bəli, 44 günlük müharibənin yol açdığı Zəfərlərdən biri oldu. Zəfərdən Zəfərə aparan yolda yeni bir Zəfər oldu.

Ermənistan Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulmasını "qanunsuz" adlandırır. Amma öz ərazisində Avropa İttifaqının missiyasının, Rusiyanın hərbi bazasının olmasını necə, xatırlayırmı?

### Aksiyanın 135-ci günü

Və yaxud bu gün 135 gündür ki, davam edən etiraz aksiyalarının səbəbini yada salmaq istəyirmi? Nə üçün düz 135 gündür ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda Azərbaycan gəncləri, QHT üzvləri, ekofəallar, tələbələr etiraz aksiyası keçirirlər? Ötən ilin dekabr ayının 12-dən başlayaraq payızdan qışa, qışdan bahara uzanan bu aksiyanın mahiyyətini anlamaq istəyirlərmi? İnsanların payızın sazağında, qışın şaxta-boranında, baharın yağışında, çənində orada etiraz aksiyası keçirmələrini yoxsa göz ardına almaq istəyirlər?

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanata uyğun olaraq Rusiya sülhməramlılarının üzərinə Azərbaycan torpaqlarında gizlənən Ermənistan ordusunun tör-töküntülərini ərazilərimizdən çıxarmaq öhdəliyi qoyulub. Bu bəyanatın imzalanmasından 2 ildən artıq keçməsinə baxmayaraq erməni terrorçuları hələ də Qarabağda qalmaqda və orada müxtəlif təxribatlar törətməkdədirlər. Ötən dövr ərzində Rusiya sülhməramlıları nəinki üzərlərinə götürdükləri öhdəliyi yerinə yetirmir, hətta səlahiyyətlərindən istifadə edərək müxtəlif qanun pozuntularına yol verirlər.

Dəfələrlə Azərbaycan hökuməti tərəfindən xəbərdarlıq olunsa da, onlar öz əməllərindən çəkinmədilər. Rusiya sülhməramlıları ermənilərlə əlbir olub, təbii sərvətlərlərimizi talan etdilər, ekologiyamıza ciddi zərər vurdular.

135 gündür ki, televiziya və internet üzərindən izlədiyimiz aksiya könlümüzü qürur hissi ilə doldurur. Aksiya iştirakçılarının "Şəhidlər ölməz, Vətən bölünməz", Azərbaycan oyaqdır, sərvətinə dayaqdır", "Qarabaq Azərbaycandır!" kimi şuarlar, Vətən, torpaq haqqında mahnılar səsləndirmələri, mətbuat nümayəndələrinə müsahibələr vermələri, tələbləri yerinə yetirilənə qədər gözləyəcəklərini bildirmələri İkinci Vətən Müharibəsində insanların birlik və həmrəyliyini gözlər önünə gətirir. Hər bir Azərbaycan vətəndaşının 44 gündə Ali Baş Komandanın əmrini gözləmələri, Qarabağ üçün canlarından keçəcəklərini bildirmələri, gecəgündüz ayıq-sayıq dayanıb hadisələri izləmələri nə qədər qürur yaradırdısa, torpaqlarımıza ekoloji zərbə endirənlərə qarşı etiraz aksiyasındakı insanların səbri, əzəməti də bir o qədər qürur doğurur.

### Bitən müharibə, başlanan müharibə

Müharibə bitdi, erməninin 30 ildə öz-özlüyündə yaratdığı xülyası yerlə bir oldu. "Böyük Ermənistan" arzuları Arazın sularına gömüldü, dünyada rüsvay, rəzil oldular, pərakəndə orduları ilə gülünc vəziyyətə düşdülər, plansız "taktikaları" ilə çox geridə qaldıqlarını sərgilədilər. Lakin gəlin görək, bütün bunlar onlara ar oldumu? Əsla. Aradan bir xeyli vaxt keçəndən sonra onların yenə də yağışdan sonra çoxalan göbələk kimi baş qaldırmasının şahidi olduq. Bu dəfə isə yeni təxribatlara əl atmaqla, yeni niyyət və arzularla gündəmə gəldilər.



# Tik-Tok qurbanı uşaqlar

MƏTANƏT

**_Biz özümüz də fərqində olmadan uşaqlarımızın başına olmazın müsibətlərini açırıq. Onları sosial şəbəkələrdə reklam etməklə nə qazanırıq, deyə bilmərəm, lakin bunun heç də doğru olmadığını əminliklə söyləyə bilərəm._**

Gül kim uşaqlarımızı milyonların qarşısına çıxarıb onların o gözəl üzünü, gülüşünü, hərəkətlərini göstərəndə nə olur ki, görəsən? Bir də görürük ki, uşaq durduğu yerdə elə bir xəstəlik tapdı ki, gəl, görəsən? Qalırsan xəstəxanalarda, həkimlərdə. İndi gəl, insanları başa sal ki, hər gözdə, hər nəfəsdə bilmədiyimiz mənfi bir qüvvə var...

İndi dəbdir, uşaq doğuldumu, xəstəxanadan çıxarılanda, sosial şəbəkələrdədir. Bir ayından bir yaşınadək hər ayın tamamında xüsusi fotosessiyalarla yenə də sosial şəbəkələrdədir. Bir yaşından sonra isə uşaqların başına açdığımız bu oyunların miqyasını daha da genişləndirib onların reklamını Tik-Tok şəbəkəsində aparmağa başlayırıq.

Bu günlərdə isə Tik-Tokda uşaqların psixoloji vəziyyətinə mənfi təsir göstərəcək yeni bir paylaşım var. Deməli, haradasa birinci, ya da ikinci sinif şagirdləri olan qız və oğlan uşaqları dərs oxumaqdan, məktəbə getməkdən imtina edirlər. Qarşılarındakı anadırmı, nənədirmi, bibidirmi, xaladırmı, bilmirəm, onların bu istəklərini qabartmaq üçün suallar yağdırır. Bu sualların qarşısında isə uşaqların aqressivliyi daha da artır. Məsələn, sən niyə məktəbə getmək istəmirsən, nə üçün yazı yazmaq, dərsini oxumaq istəmirsən kimi sualların qarşılığında uşaqlar inadla məktəbə getmək, yazmaq, oxumaq istəmədiklərini israr edirlər və ya bunları etmək üçün valideynlərindən, nənə və qohumlarından nə isə istədiklərini bildirirlər. Əks halda etməyəcəklərini israrla deyirlər. Buna cavab olaraq isə qarşıdakı həmin o videoları çəkənlər gülməkdən uğunub gedirlər. Və belə bir nəticə hasil edirlər ki, bütün bunlar təbii hallardır. Bəs yaxşı, gün boyu telefonları əllərinə verib sosial şəbəkələrin qonağı etdiyimiz digər uşaqlar necə, bu mənzərələrdən nə kimi dərs alırlar? Bu barədə düşünən olubmu?..

Təbii ki, Tik-Tokda bu video ilə qarşılaşan hər bir uşaq nə məktəbə getmək, nə yazmaq, nə oxumaq istəyəcək. Hələ dəfələrlə onun da şahidi olmuşuq ki, valideynlər bu videoları çox böyük həvəslə uşaqlarına göstərirlər. Gülməkdən uğunub gedirlər...

Vallah, sözün bitdiyi andır bu mənzərələrin hər biri. Nə deyəsən, bilmirəm. Sadəcə düşünürsən ki, hə, bunun başqa bir tərəfi də var axı. Çoxları belə videolarla sosial şəbəkələrdən pul qazanırlar. Lakin pul hər dərdin dərmanıdırmı məgər? Pul qazanmaqdan ötrü uşaqlarımızı nə üçün reklam, eyni zamanda gülünc etməliyik? Pul qazanmaqdan ötrü nə üçün milyonlarla uşağın mənəvi-psixoloji vəziyyətinə xələl gətirən videolar paylaşmalıyıq?..

Bir də ki, hərəkətlərimizlə uşaqlarımızın gələcəkdə utanmasına şərait yaradırıq, bunun fərqinə varan varmı? Bu gün sosial şəbəkələrdə paylaşdığımız videolar uşaqlarımız böyüyən zaman onlar üçün problem yaradacaq. Bu videoları görən sinif yoldaşları, dostları, rəfiqələrinin lağlağalıq etməyəcəklərinə kim təminat verə bilər. Belə olan halda isə uşaqlarımız bir-biri ilə dalaşacaq, biz də onları qarşımıza qoyub "ay bala, sizin bir-birinizlə dərdiniz nədir axı?",- deyib ittiham edəcəyik. Və yaxud da məktəbə gedib direktordan tutmuş sinif rəhbərinədək hamısını məsələyə qatacağıq.

Lakin bizə bir sual verən olacaqmı ki, axı bu məsələlərin kökündə nə dayanır? Bəli, məsələnin kökündə biz böyüklər dayanırıq. Hərəkətini, yeri gələndə nə etdiyini, nə danışdığını bilməyən böyüklər. Uşaqlarımızı gələcəkdə utandırmamaq naminə gəlin, bu Tik-Tokda özümüzü nə bu gün, nə də sabah üçün gülünc etməyək. Bu barədə bir az düşünsək, çox yaxşı olar...















Müharibə bitdi. Bu dəfə isə xislətsiz ermənilərin azərbaycanlılara qarşı yeni müharibəsi başlandı: mina müharibəsi. Məğlubiyyətlərindən iki ildən artıq müddət keçməsinə baxmayaraq hələ də minalanmış ərazilərin xəritələrinin ya olmadığını iddia etdilər, ya da göründə ki, bu xəritələri üzə çıxarmaqdan başqa çarələri qalmayıb, saxta xəritələr təqdim etdilər. Lakin hələ də işğaldan azad edilən ərazilərimiz var ki, onların xəritələri barədə ermənilər söhbət belə etmək istəmir.

Nəticə isə budur ki, müharibə bitib, lakin onun bəlaları bitməyib. Qarabağda hazırda mina müharibəsi davam edir. Müharibədən sonra həm ərazilərimizin minalardan təmizlənməsində çalışanlar, həm xidməti vəzifəsini yerinə yetirmək üçün, həm də digər səbəblərdən orada olanlar arasında minaya düşüb həyatını itirənlər yüzlərlədir.

Vətən Müharibəsindən sonra ümumilikdə 267 nəfərin minaya düşməsi ermənilərin azərbaycanlılara qarşı yeni müharibəyə başlamalarını sübut edən ciddi faktdır. Onlardan 119 nəfər mülki şəxs, 148 nəfər isə hərbi qulluqçudur. Mina partlaması nəticəsində 44 nəfər həlak olub və bu hadisə sülh dövründə baş verib. Yeni, faktiki işğal bitsə də, mina qurbanlarının sayı artır. Üstəlik, tapılan minaların 2021-ci ildə Ermənistanda istehsal olunduğu müəyyənləşib. Azərbaycanın işğaldan azad edilmiş rayonları dünyada minalarla ən çox çirklənmiş ərazilər sırasındadır. "Qafqazın Xirosiması" adlandırılan Ağdamda 97 min mina aşkar edilib.

Azərbaycanın israrlı çağırışlarından sonra ATƏT-in, ABŞ, Rusiya, Avropa İttifaqı və Gürcüstanın vasitəçiliyi ilə erməni əsirlərinin qaytarılması müqabilində minalanmış ərazilərin xəritələri təqdim olunub. Lakin çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, təqdim olunan xəritələrin dəqiqliyi 25 faiz uyğun gəlir. Təbii ki, bu xəritələrə Laçın və Kəlbəcərdən geri çəkilən Ermənistan silahlı bölmələrinin həyata keçirdiyi kütləvi minalama daxil deyil.

2021-ci ilin iyun ayının 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsinin tank əleyhinə minaya düşməsi nəticəsində azərbaycanlı jurnalistlərin ölüm xəbərindən təəssüfləndiyini bildirən ABŞ-ın Azərbaycandakı sabiq səfiri Metyu Brayza demişdi: "Azərbaycan hökuməti minaları zərərsizləşdirmək üçün mümkün olan hər şeyi edir. Amma Ermənistanın bu xəritələri təhvil verməsi beynəlxalq humanitar hüququn tələbidir. Buna heç bir bəraət qazandırmaq olmaz. Bu, beynəlxalq humanitar hüququn pozulması deməkdir. Ümid edirəm ki, ATƏT-in Minsk qrupu və həmsədrlər, eləcə də Avropa İttifaqı Ermənistanı həmin xəritələri təhvil verməyə çağıracaq".

Həmin çağırışdan bir ildən artıq vaxt keçsə də, lakin hələ də Minsk qrupu, Avropa İttifaqı bu insan itkilərinə reaksiyasız şəkildə öz fəaliyyətlərini davam etdirirlər. Elə bu səbəbdən də artıq Azərbaycan işğala son qoyub, Azərbaycan öz ərazi bütövlüyünü hərbi və siyasi yolla təmin edib. Belə olduğu halda artıq Minsk qrupuna ehtiyac yoxdur, biz Minsk qrupu ilə vidalaşmışıq, onlarla sağollaşmışıq, deyən dövlətimizin başçısı fikrini belə tamamlamışdır: "Lakin təəssüflər olsun ki, Ermənistan tərəfi və digərləri bu qrupu canlandırmaq istəyirlər. Bildirmək istəyirəm ki, bu, qeyri-mümkündür. Artıq o qrup ölüdür, cansızdır. Biz işğaldan xeyli əziyyət çəkmişik və bunu açıq-aydın şəkildə bildiririk. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda dağıdıcıdır, regionda sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir".

## Qanunsuz fəaliyyətə son qoyulacaq

Laçın-Xankəndi yolunda sərhəd-buraxılış məntəqəsinin qurulması böyük əhəmiyyətə malikdir. Bu məntəqə ermənilərin qanunsuz fəaliyyətinə son qoyacaq. İstədikləri əməlləri törətmək üçün azad olan ermənilər bundan sonra heç də əvvəlki kimi ola bilməyəcəklər. İllərlə Qarabağa silah-sursat daşıyan, burada böyük müdafiə istehkamı yaradan ermənilər bunun elə belə də davam edəcəyini düşünmüşlər 30 ildə. Hələ üstəlik qonşu, tərəfdaşlarının da payını Qarabağa yerləşdirib, sonra üzərimizə yürüməklə, deyiblər bəlkə elə belə də olmalıdır.

Lakin zaman və tarix 44 gündə onların düşüncələrinin nə qədər yanlış olduğunu göstərdi. Göstərdi ki, bu torpaqların sahibi gələcək və siz heç də həmişəki düşüncədə qalmayacaqsınız.

Bəli, o torpaqların sahibi gəldi. 30 ilin hər saatında, anında bu müharibəyə hazırlaşaraq gəldi. Və göstərdi ki, torpaqdan pay olmaz. Baxmayaraq ki, 90-cı illərdə həmin torpaqlar Azərbaycanın səriştəsiz rəhbərliyi tərəfindən ermənilərə hədiyyə olunmuşdu, o torpaqlar Azərbaycana məxsus idi və bir gün Azərbaycana qaytarılacaqdı. Bunu ölkəmizin başçısı illərlə söyləmişdi ki, sülh yolu ilə baş tutmasa, hərb yolu ilə torpaqlarımız geri alınacaq.

Dövlətimizin başçısının iradəsi, xalqımızın birlik və həmrəyliyinin, milli ordumuzun mətinliyinin, gənclərimizin vətənpərvərliyinin qələbəsi olan Qarabağ Zəfəri tariximizin parlaq bir səhifəsinə çevrildi. Azərbaycan 300 min ildən sonra torpaqlarımızın azadlığı mübarizəsinə qalxdı. Bu yolda Ali Baş Komandanımız yolgöstərənimiz, sərkərdəmiz oldu. Onun səriştəsi və rəhbərliyi ilə xalqımız öz taleyüklü məsələsini-namus, qeyrət, şərəf məsələsini həll etdi. Torpaqlarımızı azad etdi, düşmənin tapdağından qurtardı.

Zəfər üçtərəfli 10 noyabr Bəyannaməsi ilə bitdi. Ermənilər 2 ildən artıq zamanda hələ də əməl etmədikləri Bəyannamə ilə. Lakin onların qarşısında əzmli bir xalq, bu xalqın iradəli, başladığı işi sona çatdırmaq bacarığında olan rəhbəri var. Deməli, 10 noyabr Bəyannaməsində ermənilərin üzərinə götürdükləri bütün öhdəliklər maddə-maddə həyata keçəcək. Onların istəklərindən asılı olmayaraq. Elə Laçın-Xankəndi yolu üzərində sərhəd-buraxılış məntəqəsinin qurulması bu barədə ermənilərə mühüm mesajlar vermirmi?..

***Mətanət Məmmədova***



ARAŞDIRMA

# Ürək bulanmasına nə səbəb olur?

***Ü**rəkbulanma, qida zəhərlənməsi, ishal, həddindən artıq yağlı və ağır qidaların qəbulu, qastrit və reflü kimi mədə xəstəlikləri nəticəsində yarana bilər. Bundan əlavə, ürəkbulanma tez-tez qusma ilə müşayiət olunur.*



## Bəs, bunu necə aradan qaldıra bilərik?

SİA mövzu ilə bağlı araşdırma edib.

Zəncəfil ürəkbulanmanı aradan qaldırmaqda təsirli ola bilər. Lakin ürək bulanması ciddi bir xəstəlikdən də yarana bilir. Buna görə də, ürək bulanmasının səbəbini aşkar etmək və müalicə etmək çox vacibdir.

## Bulantı nədir?

Ürəkbulanma, adətən, qusma ilə müşayiət olunan xoşagəlməz, həyat keyfiyyətinin pozulmasıdır.

## Bulantı necə baş verir?

Əgər ürəkbulanmadan sonra qusma olacaqsa, xəstə saniyələr ərzində tərləyir, ağzı sulanır, ürək döyüntüləri yavaşlayır, qarın əzələləri birdən büzülür və mədə içindəkiləri xaric etmək üçün ağzını bağlayır. İnsan adətən qusduqda rahatlıq hiss edir.

## Ürək bulanmasına nə səbəb olur?

- Qida zəhərlənməsi,
- Nazik və yoğun bağırsaqların kəskin mikrob infeksiyaları (ishal),
- Qastrit,
- Qaraciyərin kəskin xroniki iltihabı,
- Kəskin xroniki qaraciyər çatışmazlığı,
- Öd kisəsində daş palçıq iltihabları,
- Mədə, kolon, mədəaltı vəzi xərçəngi,
- Metastatik xərçənglər,
- Lenfoma beyin şişləri,
- Kimyaterapiya-radioterapiya keçirən şəxs,
- Migren və baş ağrıları
- Qulaq və beyin infeksiyaları
- Yol tutması
- Dərmanların yan təsirləri,
- Sidik sisteminin infeksiyaları (sidik yollarının infeksiyaları) və daşlar,



## Ürək bulanmasına nə yaxşıdır?

Zəncəfil ürəkbulanmaya yaxşı gəlir. Ancaq ürək bulanmasının səbəbini müəyyən etmək çox vacibdir. Buna görə də ürəkbulanma zamanı həkimə müraciət etmək lazımdır.

## Uşaqlarda ürək bulanmasının səbəbləri və müalicəsi

Uşaqlarda ürək bulanmasının səbəblərinə aşağıdakılar daxildir:
- Yuxarı tənəffüs yollarının bakterial viral infeksiyaları,
- Mikrob qida zəhərlənməsi,
- Süd allergiyası,
- Həddindən artıq yemək
- Kəllədaxili təzyiqi artıran şərtlər,
- Psixogen səbəblər,Bu, xolinergik reseptorlarla hərəkət, tarazlıq, görmə və qoxu hisslərinin stimullaşdırılması səbəbindən baş verə bilər.

## Bulantı necə müalicə olunur?

- Ürək bulanmasına səbəb olan xəstəliyi müalicə edərək,
- Qan maye elektrolit çatışmazlığının aradan qaldırılması ilə,
- Bulantı əleyhinə dərmanlarla simptomatik müalicə aparmaqla həyata keçirilir.
- Həmçinin, qusmağa səbəb olan dərmanlar dayandırılır.
- Yüksək qızdırma ilə müşayiət olunan xəstəliklər,
- Öskürək xəstəlikləri.

Uşaqlarda ürək bulanmasının müalicəsi ürək bulanmasının səbəbinə uyğun olaraq planlaşdırılır. Belə ki, onlarda bulantıları müalicə etmək üçün pəhriz və bulantıya qarşı dərmanlar istifadə olunur.

## Hamilə qadınlarda ürək bulanmasının səbəbləri

Körpənin ana bətnində tutunmasını təmin edən Beta HCG estrogen progesteron hormonlarının artması ilə hamilə qadınlarda 8-10 həftə arasında ürəkbulanma meydana gələ bilər. Bəzi hamilə qadınlarda ürəkbulanma çox şiddətlidir və xəstəxanaya yerləşdirilməsini tələb edə bilər. Hamiləlik dövründə ürəkbulanma, adətən, səhər bulanması şəklində olur və 14-cü həftədən sonra ürək bulanması azalmağa başlayır.

## Hamiləlik zamanı ürək bulanması üçün nə yaxşıdır?

- Kraker, noxud, xörək kimi quru qidalara üstünlük verilməlidir,
- Qızardılmış, yağlı, ədviyyatlı, turşulu qidalar qəbul edilməməlidir,
- Stress, yemək qoxuları və siqaretdən uzaq durmaq lazımdır,
- Bol maye qəbul edilməlidir.

Bundan əlavə:
- zəncəfil,
- limon,
- B vitamini bəzi hamilə qadınlarda ürək bulanmasına yaxşı təsir göstərə bilər.

***Ayşən Vəli***

# “Bu addımlar Böyük Qayıdışın icrasını sürətləndirəcək”

“Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmiz sosial-iqtisadi inkişafın müasir mərhələsində sanballı uğurlarını inamla davam etdirməkdədir. Həyata keçirilən uğurlu dövlət quruculuğu bütün sahələrdə inkişaf proqramlarının sürətli icrasına, Qarabağ və Şərqi Zəngəzurda başlanmış böyük miqyaslı abadlıq və quruculuq işlərinin genişlənməsinə, Böyük Qayıdışın təmin edilməsinə öz töhfələrini verməkdədir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Hüseynov deyib.

Onun sözlərinə görə, bütün bunlarla bərabər, ölkəmizin qarşısında meydana çıxan yeni çağırışlar, ələxsus da, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, müasir zəruri infrastrukturların, o cümlədən Ermənistanla dövlət sərhədində yeni sərhəd infrastrukturların və Zəngəzur dəhlizinin yaradılması istiqamətində işlərin miqyasının artması, eyni zamanda, ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi, həmçinin etibarlı sosial müdafiə tədbirlərinin artırılması əlavə maliyyə vəsaitlərini tələb edir: ”Bu xüsusda qeyd edək ki, hazırkı büdcə layihəsində azad edilmiş ərazilərin bərpasına 3 milyard manat ayrılıb, reallıq isə budur ki, həmin tədbirlərin miqyasının artması əlavə xərclər tələb edir.



2023-cü ilin ötən 3 ayı ərzində dövlət büdcəsinin gəlirləri 8 milyard 290 milyon manat, xərcləri 6 milyard 566,9 milyon manat olmuş, 1 milyard 723,1 milyon manat məbləğində dövlət büdcəsinin artıqlığı (profisit) yaranıb. Bu da 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 343 milyon manat və ya 24,9 faiz çoxdur. Dövlət Vergi Xidməti 2 milyard 97 milyon manat, Dövlət Gömrük Komitəsi isə 313 milyon manat çox vəsait toplayıb. Proqnozlara görə, bu dinamika qarşıdakı ikinci rübdə də davam edəcək və 2023-ci ilin birinci yarısında büdcədə təkcə vergi və gömrüyün yığımı birlikdə 3 milyard manatı keçəcək”.

Deputat sözlərinə davam edərək bildirib ki, nəticədə ilin ilk yarısında büdcədə əlavə 3 milyard manat əlavə gəlir mənbələri formalaşacaq: ”Həmin əlavə vəsaitlər isə ilk növbədə azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinin daha da genişlənməsinə və hərbi büdcəmizin artırılmasına yönələcək. Cənab Prezidentin Azərbaycan Televiziyasına müsahibəsində vurğuladığı kimi maliyyə imkanlarımızın artması işğaldan azad edilmiş ərazilərdə quruculuq və bərpa işlərinin miqyasını daha da artırmağa, həmçinin əhalinin sosial rifahının yaxşılaşdırılması üçün dəstək tədbirlərinin davam etdirilməsinə, digər mühüm sosial tələbləri yerinə yetirməyə imkan verdiyindən dövlət büdcədən əlavə vəsaitlərin ayrılması təmin ediləcəkdir. Prezident cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, İqtisadi Şuranın növbəti iclasında 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılması (dürüstləşmə) ilə bağlı müzakirələr aparılıb və Ortamüddətli Xərclər Çərçivəsi və 2024-cü il və növbəti üç il üçün icmal və dövlət büdcələrinin proqnozları, ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası” üçün maliyyə təminatı və digər məsələlər geniş yer verilib. 2023-cü ilin dövlət büdcəsinə əlavə düzəlişlər layihəsinin hazırlanması qərara alınıb və yaxın günlərdə layihə hazırlanaraq hökumətə və Milli Məclisə təqdim olunacaq”.

***Ləman Əlizadə***

# Dünyada Azərbaycan brendi kimi tanınan ”ASAN xidmət”

## İlham Əliyev: "Bu xidmətin yaradılması faktiki olaraq ictimai xidmətlər sahəsində bir inqilab idi"

**Azərbaycan Prezidenti İlham Əliyevin 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən yaradılan ”ASAN xidmət”in coğrafi əhatəsi genişlənir, həm də funksiyaları artır. Vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə yaradılan ”ASAN xidmət” mərkəzlərinin fəaliyyətə başlaması dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsində mühüm rola malikdir.**

”Vahid məkan” prinsipi əsasında fəaliyyət göstərən ”ASAN xidmət” mərkəzlərində vətəndaşlara xidmətin daha yaxşı göstərilməsi üçün yeni üsullardan və müasir innovasiyalardan istifadə olunur. Əlbəttə ki, yaradılan imkanların nəticəsidir ki, vətəndaş məmnunluğu yaranıb.







### ”ASAN XİDMƏT” MƏRKƏZLƏRİNDƏ GÖSTƏRİLƏN XİDMƏTLƏR ƏHALİ TƏRƏFİNDƏN RƏĞBƏTLƏ QARŞILANIR VƏ BƏYƏNMƏ ƏMSALI 99,8 FAİZDİR”

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev respublika üzrə sayca 25-ci olan Salyan regional ”ASAN xidmət” mərkəzinin açılışını edib. Salyan regional ”ASAN xidmət” mərkəzi üçün ayrılan 2 hektar ərazidə inzibati bina, iki yerüstü avtomobil dayanacağı, kafe, konsert səhnəsi, dekorativ fəvvarə, istirahət və uşaq əyləncə meydanı yaradılıb. Mərkəzdə mediafasad quraşdırılıb. Əsasən Salyan, Neftçala, Biləsuvar, Şirvan rayonlarında qeydiyyatda olan ümumilikdə 426 min 600 vətəndaşa xidmət edəcək mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox xidmət həyata keçiriləcək. Burada çalışacaq əməkdaşların ümumi sayı 205, könüllülərin sayı 45 nəfər nəzərdə tutulur. Qeyd edək ki, son illərdə Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar xüsusi vurğulanmalıdır. ”ASAN xidmət” mərkəzlərinin yaradılması da bu islahatların tərkib hissəsidir. Bu mərkəzlər dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibə verərkən bildirib ki, ”ASAN xidmət” sistemi bu gün dünyada artıq Azərbaycan brendi kimi tanınır və nəinki ölkə əhalisi tərəfindən yüksək qiymətləndirilir, onu da deməliyəm ki, ”ASAN xidmət” mərkəzlərində göstərilən xidmətlər əhali tərəfindən rəğbətlə qarşılanır və bəyənmə əmsalı 99,8 faizdir.

### ”ASAN XİDMƏT” BİZİM, O CÜMLƏDƏN İNTELLEKTUAL MƏHSULUMUZUN BİR NÜMUNƏSİDİR”

Hazırda Azərbaycanda 25 ”ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakı şəhərində, 2-si Gəncədə, 2-si Sumqayıtda olmaqla digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən və Salyandadır. Lənkəran və Naxçıvanda isə ilk ”ASAN xidmət” mərkəzləri inşa olunur. ”ASAN xidmət” mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox, ”ASAN Kommunal” mərkəzlərində isə ”Azərişıq” ASC, ”Azərsu” ASC və ”Azəriqaz” İB tərəfindən 55 növ xidmət göstərilir.

Bu günədək ”ASAN xidmət” mərkəzlərinə 8 milyon 640 mindən çox vətəndaşın 61 milyondan çox müraciəti daxil olub. ”Son illər ərzində, yəni, 10 il ərzində 61 milyon müraciət olmuşdur. Yəni, bu xidmətin yaradılması faktiki olaraq ictimai xidmətlər sahəsində bir inqilab idi, bir dönüş nöqtəsi idi və hazırda 300-dən çox xidmət göstərilir. Beləliklə, ”ASAN xidmət” bizim, o cümlədən intellektual məhsulumuzun bir nümunəsidir və eyni zamanda, biz artıq intellektual məhsul ixrac edirik”, - deyə Prezident bildirib.

Qeyd edək ki, 29 dekabr 2012-ci ildə Bakıda pilot layihə olaraq ilk ”ASAN xidmət” açılışı oldu. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirilməklə 15 yanvar tarixində fəaliyyətə başladı. Həmin tarixdən vətəndaşlara yüksək keyfiyyətli xidmətlər göstərilir. Və bu günə qədər ölkəmizin bir çox yerlərində mərkəzlərin sayı durmadan artır.

”ASAN xidmət” mərkəzlərində müxtəlif dövlət orqanlarının vətəndaşlara göstərdiyi xidmətlərdən başqa funksional yardımçı xidmətlər də təklif olunur. 2013-cü ilin iyunun 1-dən etibarən artıq ”ASAN xidmət”in təklif etdiyi xidmətlərdən istifadə etmək üçün mərkəzlərə gələ bilməyən vətəndaşlara xidmət göstərmək üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz olunmuş səyyar avtobuslardan istifadə olunur. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin tapşırığı əsasında ”ASAN xidmət” mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar ”ASAN qatar” konsepsiyası da reallaşdırılıb. Bütün bunlar vətəndaşların rahatlığının təminatında, onlara şəffaf və nəzakətli xidmətin göstərilməsinin əsas faktorlarıdır.

### ”ASAN XİDMƏT”Ə DÜNYADA ARTAN MARAQ

Azərbaycan brendi olan ”ASAN xidmət” mərkəzləri beynəlxalq mükafatlara layiq görülüb. Bu gün ”ASAN xidmət”in fəaliyyəti Avropa İttifaqında, Avropa Parlamentində, Böyük Britaniya parlamentində, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın ”ASAN xidmət” modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. Bu illər ərzində xidmət bir neçə beynəlxalq dərəcəli sertifikata layiq görülüb, Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. ”Uğur 2013” ”səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə” nominasiyasının qalibi olub. İSO 9001:2008 idarətmə standartı üzrə beynəlxalq sertifikatı alıb. ”ASAN xidmət” 2015-ci il BMT-nin ”Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi” kateqoriyasında birinci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif edilib. Dövlət Agentliyi ilə ISESCO arasında imzalanan Birgə Əməkdaşlıq Proqramına əsasən qabaqcıl idarəetmə üzrə ”ISESCO-nun ASAN mükafatı” təsis olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan ”ASAN xidmət”ə dünyada böyük maraq var.

### DÖVLƏT SOSİAL XİDMƏTLƏRİN İNNOVATİV YANAŞMALARA ƏSASLANAN MODERN, ÇEVİK VƏ OPTİMAL MEXANİZMLƏRİ

Sosial təminat sahəsində də buna oxşar layihə həyata keçirilir - DOST mərkəzləri fəaliyyətə başlayır və ”ASAN xidmət” kimi, DOST mərkəzləri də bütün ölkəni əhatə edəcək. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Mərkəzlərində əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza sahələri üzrə 100-dən artıq xidmət göstərilir. 4 Saylı ”DOST” Mərkəzinin tərkibindəki ”Çağrı Mərkəzi” ölkə üzrə gündəlik 5 minədək zəng qəbuluna şərait yaradır. Bütün bunlar dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulmasını özündə ehtiva edir. Azərbaycanda əhalinin sosial-rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində görülən işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Təsadüfi deyil ki, bu istiqamətdə həyata keçirilən tədbirlər ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. 2019-2025-ci illərdə istifadəyə verilməsi nəzərdə tutan DOST mərkəzlərinin 5-i Bakıda, 26-sı isə regionlarda olacaq. Ümumilikdə DOST mərkəzlərində ”bir pəncərə” prinsipi ilə 2,8 milyon insana 132 xidmət göstəriləcək.

Bu, ”DOST” mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində ”ASAN xidmət”dən sonra Azərbaycanın yeni brendinə çevriləcəyini deməyə əsas verir. DOST layihəsi, artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb. Bu gün Azərbaycan təcrübəsi dünya ölkələrində öyrənilir. Prezidentin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyinin və xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın, regionun aparıcı dövlətlərindən birinə çevrilməsi, ölkəmizin dünya miqyasında nüfuzunun artması, yüksək səviyyəli beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsi, şəhər və regionlarımızın simasının gözəlləşməsi, eləcə də, insanların maddi və mənəvi rifah halının yaxşılaşdırılmasında öz əksini tapıb. Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas məqsədləri əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və əhalinin rifah səviyyəsinin yüksəldilməsidir. Bu istiqamətdə aparılan islahatlar, görülən işlər təqdirəlayiqdir və hər bir Azərbaycan vətəndaşı tərəfindən rəğbətlə qarşılanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “MEDİAlab” layihəsi çərçivəsində silsilə təlimlər davam edir



Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə gənclərin media sahəsində fəal iştirakına şərait yaratmaq, yaradıcı-innovativ potensialını stimullaşdırmaq, xarici təcrübəyə əsaslanan nəzəri biliklərini artırmaq və yerli mediada tətbiqini reallaşdırmaq, bu istiqamətdə təcrübə mübadiləsini həyata keçirmək üçün ”MEDİAlab” layihəsi çərçivəsində silsilə təlimlər davam edir. SİA xəbər verir ki, Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və 4 ali təhsil müəssisəsinin - Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tərəfdaşlığı ilə həyata keçirilən ”MEDİAlab” layihəsi çərçivəsində jurnalistika ixtisasında təhsil alan və jurnalistikaya marağı olan gənclər üçün Psixologiya Elmi-Tədqiqat İnstitutunda psixoloq Elnur Rüstəmov tərəfindən ”Emosional zəka” mövzusunda təlim təşkil olunub.

Təlim müddətində emosional zəka anlayışı, onun yaranma tarixi, özünü dərk etmə, İQ VƏ EQ arasında əlaqə kimi mövzulara toxunulub. Təlim interaktiv şəkildə və qarşılıqlı fikir mübadiləsi əsasında aparılıb, gənclərin ünvanladığı suallar təlimçi tərəfindən cavablandırılıb.

# “Azərbaycanın beynəlxalq hüquqa söykənən addımı suverenliyimizin təsdiqidir”



Azərbaycanın hərbi-siyasi Qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasından iki ildən artıq müddət keçməsinə baxmayaraq, işğalçı dövlət sənəddən irəli gələn öhdəliklərinin yerinə yetirilməsi barədə düşünmür. İndiyədək Azərbaycan ən yüksək tribunalardan dönə-dönə bəyan edib ki, Qarabağda hələ də qanunsuz erməni hərbi dəstələri və kriminal ünsürlər qalmaqdadır. Bu problemin həll edilməməsində əsas günahkar olan Ermənistan 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatın tələblərini kobudcasına pozur və buna görə məsuliyyət daşımalıdır. 2022-ci ildə Praqa və Soçidə keçirilən görüşlərdə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımasına baxmayaraq, hələ də öz qoşunlarını tam olaraq Azərbaycan ərazilərindən çıxarmamışdır. Üçtərəfli Bəyanatın imzalanmasından ötən müddətdə Azərbaycan tərəfi davamlı şəkildə Laçın yolundan Ermənistan tərəfinin genişmiqyaslı sui-istifadə hallarına diqqəti yönəldir. Bu cür sui-istifadə halları sırasında Azərbaycanın Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlı kontingentinin nəzarətində olan hissəsinə silah və sursatın daşınması, terrorçuların bölgəyə keçidi, təbii sərvətlərin və mədəni mülkiyyətin qanunsuz daşınması qeyd edilir. Laçın yolu vasitəsilə daşınan minalar sonradan Azərbaycanın suveren ərazilərində basdırılaraq ağır fəsadlara gətirib çıxarır. Məhz bu səbəblərə görə Azərbaycan dünyada ərazisi mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. 2020-ci ilin noyabr ayından bu günədək 300-ə yaxın azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya ağır yaralanmışdır. Ermənistan tərəfinin Laçın-Xankəndi yolundan qanunsuz məqsədlər üçün sui-istifadəni davam etdirməsi, təhlükəsizliyə ciddi manеələrin yaranması Azərbaycan hökumətinin Azərbaycan-Ermənistan sərhədində - Laçın-Xankəndi yolunun başlanğıcında nəzarətin təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirməsini bir zərurətə çevirdi. Bu baxımdan aprelin 23-ü çağdaş tariximizə əlamətdar günlərdən biri kimi daxil oldu. Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında Dövlət Sərhəd Xidmətinin nəzarət-buraxılış məntəqəsinin qurulması ölkəmizin suverenliyinin növbəti təsdiqi kimi dəyərləndirilir. Azərbaycan-Ermənistan dövlət sərhədi istiqamətində, eyni zamanda, Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan bölgədə ermənilərin törətdikləri hərbi təxribatlarla bağlı Azərbaycanın sərt bəyanatlarına laqeyd yanaşılmasına, hətta bir qədər də irəli gedərək sülhməramlı missiyanın mahiyyətini dərk etmədən işğalçının qanunsuz əməllərinə dəstək verməsinə ölkəmiz ədalətə və beynəlxalq hüquqa əsaslanan addımı ilə cavab verdi. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatında da bu məqam xüsusi qeyd edilir ki, Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin təsis edilməsi yoldan hərəkət üzrə şəffaflığı, qanunun aliliyini və beləliklə, hərəkətin təhlükəsizliyini təmin edəcək. Sərhəd təhlükəsizliyinin təmin edilməsi, hərəkətin təhlükəsizliyinin həyata keçirilməsi Azərbaycanın bu ərazilərində milli təhlükəsizlik, dövlət suverenliyi, qanunun aliliyi üçün zəruri şərtdir. Üçtərəfli Bəyanat üzrə öhdəliklərə uyğun olaraq Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə Azərbaycan Respublikası tərəfindən təhlükəsizlik zəmanəti olan bu əlavə tədbir çərçivəsində ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bu məntəqədən hər iki istiqamətdə Ermənistana və Azərbaycana şəffaf və nizamlanan keçidi üçün müvafiq şərait yaradılacaq.

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, Azərbaycanın tarixi Zəfərini həzm edə bilməyən, bu səbəbdən də möhtəşəm Qələbəmizin yaratdığı reallıqları, ölkəmizin təklif etdiyi sülh müqaviləsinin mahiyyətini özlərinə sərf edən şəkildə təhlil edən bəzi dünya gücləri belə əsassız fikirlər irəli sürürdülər ki, guya Azərbaycan Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək iqtidarında deyil. İstər bu mühüm addım, istərsə də dövlət başçısı İlham Əliyevin bu günlərdə Salyan şəhərində Azərbycan Televiziyasına müsahibəsində Ermənistana və ona havadarlıq edən dövlətlərə sərt mesajları belə düşüncə sahiblərinin planlarını alt-üst etdi. Ölkə Prezidenti bildirdi ki, hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır. Sadəcə olaraq, bu zəlilər, yırtıcı heyvanlar, separatçılar qoymurlar. Qoymurlar ki, bu insanlar rahat yaşasınlar, 30 il bunları girov kimi saxlayıblar. Separatçılar da bilməlidirlər ki, onların iki seçimi var: ya Azərbaycan Bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər.

Vüqar Rəhimzadə onu da əlavə edib ki, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması Qarabağı cinayətkarlardan və qeyri-qanuni silahlı birləşmələrdən təmizləməklə yanaşı, burada yaşayan erməniləri uzun illərin girovluğundan xilas edəcək. Atılan bu mühüm addım Azərbaycanın suveren hüququdur. Əslinə qalanda Ermənistan hakimiyyətinin və onlara havadarlıq edən dövlətlərin beynəlxalq hüquqa əsaslanan bu mühüm addımın ətrafında yaratdıqları ajiotaj gözlənilən idi. Reallıq budur ki, onların qanunsuz əməllərinin məhdudlaşdırılması əsassız bəyanatlarına yol açır ki, bu da Azərbaycanın ünvanına ötən illər ərzində səsləndirilən qeyri-ciddi, absurd, heç bir mahiyyət kəsb etməyən fikirlərdən biridir. İstər 30 illik işğal, istər 44 günlük İkinci Qarabağ müharibəsi, istərsə də postmünaqişə dövründə Ermənistana havadarlıq edən Fransa yenə də əsassız təbliğatı ilə gündəmdədir. Belə ki, Fransanın Avropa və Xarici İşlər Nazirliyinin mətbuat katibi Ann-Kler Lejandr sərsəm bəyanatında əlində heç bir əsaslı fakt olmadan Azərbaycanı üçtərəfli razılaşmanın tələblərini pozmaqda, hansısa beynəlxalq sənədə və məhkəmə qərarına zidd addım atmaqda ittiham edir. Təbii ki, Fransa kimi dünyaya ”ədalət və beynəlxalq hüquq dərsi” keçməyə cəhd edən dünya gücü əməldə də bu dəyərləri qorusaydı belə sərsəm təbliğatından əl çəkər, dünyada etimad mühitinin yaradılmasına töhfələr verib sözün əsl mənasında Cənubi Qafqazda dayanıqlı sülhün və təhlükəsizliyin yaradılmasının vacib amil olduğunu əməldə təsdiqləyərdi. Real olan budur ki, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması Azərbaycanın bölgədə sülh, sabitlik və əməkdaşlıq mühiti yaratmaq istəyinin təcəssümüdür. Yaxşı olardı ki, Fransa Ermənistanın iki ildən artıq dövrdə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozmasına münasibət bildirsin, ədalət və beynəlxalq hüquq prinsiplərini bilərəkdən pozmasın.

Vüqar Rəhimzadə belə bir ümumiləşdirmə qənaətinə gəlib ki, Azərbaycan hər zaman ədalətin və beynəlxalq hüququn yanındadır. Dövlət başçısı İlham Əliyevin bütün çıxışlarının mahiyyətində dayanan ”Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm” tezisi zaman-zaman atılan addımlarda öz təsdiqini tapır.



# Mədəniyyət zəhərlənməsi

Lalə Mehralı

***Mədəniyyət yalnız insana xas xüsusiyyətdir. Yaradanın ”ən ali varlıq” deyib xəlq etdiyinə yəni. Təbiət mədəni ola bilməz, heyvanın mədəniyyətindən danışmaq olmaz. Mədəni olmağı pul ilə əlaqələndirmək, mədəniyyəti pula bağlamaq da olmaz. Qızıl bir unitazınızın olması, yeməyi 4-5 cür çəngəlbıçaqla yeməyiniz, ən elit məkanlarda olmağınız, teatr-opera ilə maraqlanmağınız da mədəniyyət göstəricisi deyil. Kostyum geyinib hakim qarşısına çıxan cani mədəni görünə bilər, amma mədəniyyətli deyil. İçi yoxsul olan birindən mədəniyyətin qızıl qaydalarını da gözləyə bilmərik. Ruhu çirkin, mənəviyyatı yoxsul olan ziyalı, savadlı, ədəb-ərkan qaydalarına zorakı əməl edənlər mədəniyyətli deyil, mədəniyyətli olmağa çalışandır.***

Bəzən deyirlər yaxşılıq və gülüş yoluxucudur, birindən digərinə yoluxur. Məncə, mədəniyyətsizlik daha çox yoluxucudur. Hətta epidemiyadır. Əksi olsaydı bu qədər mədəniyyətsiz insanla eyni cəmiyyətdə yaşamazdıq, elə deyil? Mədəniyyətsizlik hər gün daha çox insana keçir, kütləvi zəhərlənmə gedir.

Sözsüz ki, sizin də üst qonşuluğunuzda eyvanında xalı çırpan, eyvanınıza siqaret kötüyü atan qonşularınız var. Şübhəsiz ki, içdiyi enerji içkisinin boş qutusunu elə yeridiyi yola atıb gedən insanları görmüsünüz. Şəksiz ki, ümumi tualetlərdəki mənzərənin siz də şahidi olmusunuz. Bütün bunları kim edir sizcə? Mədəniyyətli adamlar?

Hamı mədəniyyətlidirsə mağazada başqasının növbəsinə girənlər kimdir bəs? Ümumiyyətlə, növbə mədəniyyəti olmayıb ictimai nəqliyyat gözləyərkən başqalarının belinə minənlər bəs? İctimai yerlərdə at kimi fınxırıb burun dəliklərindəki ifrazatı boşaldanlar, hayqırıb boğazındakı bəlğəmi səkiyə tüpürənlər kimdir? Hələ yollar...

Yollardakı vəziyyət, sadəcə, dəhşətdir. Zolaq dəyişdirərkən dönmə işıqlarını yandırmayanlar, qarşıdakı avtomobillə öz aranda saxladığın distansiyaya dürtülənlər, piyada zolağından maksimum sürətlə keçənlər, üç avtomobilin yerləşəcəyi yerə bir avtomobil park edənlər, ən sağ zolaqdan sola dönənlər, işıqforda dayananda siqnalı ayaqlayanlar... Onlar mədəniyyətlidir?

Birlikdə yaşamaq sivil cəmiyyətlərdə məcburi həyat tərzidir. Biz özümüzü bundan təcrid edə bilmərik. Çünki insanlar ehtiyaclıdırlar, birimiz digərinə ehtiyac duyuruq. Mən yazını yazdım, amma dərc edilməsə nəyə yarayır ki bu yazı? Deməli, nəşriyyatdakı işçiyə ehtiyacım var. Nəşriyyatdakı yazımı dərc etmək üçün elektrik enerjisinin təminatını həyata keçirənə ehtiyac duyacaq, olmasa nə edəcək? Acmısınız, yemək bişirmək üçün bazarlıq etməlisiniz, o qidaları satan olmasa nə edəcəksiniz? Demək ki, bir-birimizə ehtiyacımız var. Amma birlikdə yaşamaq üçün öhdəliklərimiz də var və o öhdəliklər bizi mədəni və ya mədəniyyətsiz insan olaraq iki cəbhəyə bölür. Siz hansı cəbhədə olmaqdan məmnunsunuz?

Mədəni olmaq və ya mədəni həyat sürmək, ilk növbədə, ailədən başlayır. Ailədə qazanılan mədəni dəyərlər, əslində, cəmiyyətin avantajıdır. Əgər bu dəyərlər ailə üzvlərindən başlayıb, zamanla cəmiyyət tərəfindən mənimsənilən, bizi daha mədəni cəmiyyət gözləyəcək. Əksini düşünmək belə istəmirəm.

# “Azərbaycan öz suveren ərazilərində günü-gündən güclənir”

**“İlk öncə qeyd edim ki, 10 noyabr razılaşmasının bəndlərinə əməl olunması bütün hallarda mütləqdir və bununla bağlı məsələlər, tələblər zaman-zaman dövlətimiz tərəfindən qaldırılıb”. Bunu millət vəkili Elşən Musayev ”Səs” qəzetinə açıqlamasında deyib.**

Onun sözlərinə görə, indi isə proses elə bir mərhələdədir ki, artıq Ermənistan istəsə də, istəməsə də proses öz axarı ilə gedəcək: ”Daha dəqiq söyləsəm: hadisələr Ermənistanın kefi ilə deyil, Azərbaycanın gücü iradəsi ilə həllini tapır və yeni sərhəd-keçid məntəqəsinin qurulması da məlum qəbildəndir. Üstəlik, həmin məntəqənin fəaliyyətə başlaması ilə erməni provokasiyalarının, təxribatlarının qarşısı ciddi şəkildə alınacaq. Çünki artıq hər şey nəzarət altındadır. Sərhədimiz əmin əllərdədir. Qəhrəman zabitlərimiz, igid sərhədçilərimiz iş başındadır”.

E.Musayev onu da bildirdi ki, separat və separatçı anlayışına münasibət təbii ki, hər zaman pis olacaq: ”Çünki destruktiv fəaliyyətlə məşğul olan qrupun düz yola gəlməsi mümkün deyil. Amma məsələ burasındadır ki, artıq həmin separatçılar məqsədlərinə nail ola bilməyəcəklər. Çünki Azərbaycan öz suveren ərazilərində günü-gündən güclənir və onsuzda mövcud olan üstünlüyünü daha da artırır. Bundan sonrakı hədəf isə sülhdür.



Ona da tezliklə nail olacayıq. Buna kimsənin şübhəsi olmasın”.

**GÜLYANƏ**

# Gecə növbəsində işləyirsinizsə...

## Gecə növbəsində işləyənlər alzeymer xəstəliyinin potensial qurbanıdır

***Alimlər gecə növbəsində işləyənlərlə ağlını itirmək, yaddaşın silinməsi, həyatına dair heç nəyi və heç kimi tanımamaq kimi əlamətləri olan alzeymer xəstəliyi arasında bağlılıq tapıblar. Mütəxəssislərə görə, gecə işləyənlərin, xüsusilə də, həzm sistemləri başda olmaqla orqanizmindəki dəyişiklər alzeymer xəstəliyinə təkan verir. Bu araşdırma alzeymer xəstəliyinin müalicəsində normal yuxunun nə qədər vacib olduğunu üzə çıxardı.***



### Gecə növbəsi təbii balansı pozur

Məlumat üçün qeyd edək ki, sadəcə Amerikada 15 milyon insan gecə növbəsində işləyir. Bu insanların böyük əksəriyyəti gündüz işindən sonra gecə ikinci işinə gedir. Bu isə sağlamlıq üçün ciddi problemlər yaradır.

Bu ölkədə aparılan bir araşdırma zamanı məlum olub ki, gecə növbəsində çalışan polislərin əksəriyyəti sutkada 6 saatdan az yatır, onların bu göstəricisi sağlamlıq problemlərinin artmasına səbəb olur. Gecə növbəsində işləyən insanların qanındakı serotonin hormonu gündüz növbəsindəm işləyənlərin qanındakı serotonin hormonundan daha azdır. Xoşbəxtlik hormonu hesab edilən bu hormon həm də normal yuxu yaradır, gecələr iş başında mürgüləyən insanların serotonin dəyəri az olduğu üçün onlar özlərini kimsəsiz və bədbəxt hesab edirlər.

Bundan əlavə, gecə növbəsində işləyən insanlarda şəkərli diabet xəstəliyinin yaranma riski də yüksəkdir, gecə işləyən kişilərin gecə işləyən qadınlara nisbətən daha çox şəkərə yaxalanma riski də var. Gecə növbəsində işləyənlərin daha çox ikinci tip diabetə yaxalanır, çünki gecə növbələri bədəndə insulin ifrazını minimuma endirir.

### Qadınlar daha çox zərər görür

Gecələr işləmək məcburiyyətində qalanlarda əsəb, ürək, qan-damar xəstəliklərinin çox rastlandığını deyən həkim Rəşad Hüseynovun sözlərinə görə, insan üçün ən doğru yuxu vaxtı gecədir: ”Həm zamansız, həm də normadan az yatdıqları üçün gecə növbəsində işləyənlər zamanla sağlamlıq baxımından ciddi problemlərlə üzləşirlər. Xüsusilə də, qadınların gecələr yuxusuzluğa dözümü yoxdur, çünki gündüzlər evin, ailənin qayğıları onları çox yorur, dincəlmədən işləyirlər, üstəlik lazımı qədər yuxu yatmadan gecə növbəsinə çıxırlar. Kişilər gecələr işləsə də gündüzlər yatıb yuxusunu ala, dincələ bilirlər, ona görə gecə növbəsi onları qadınlar qədər yormur”.

Qeyd edək ki, son araşdırmalara görə, gecələr işləyən qadınlarda döş xərçəngi riski 30 faiz artır. Əgər qadın ən az 4 il gecə növbəsində işləyibsə və bu növbələr həftədə 3 dəfədən artıqdırsa onda süd vəzisi xərçəngindən şübhələnmək olar. O cümlədən gecələr işləyənlərin bədənində leptin adlı hormon azalır, bu hormon bədəndə və qanda həm insulin, həm də şəkər tarazlığını yaradan hormondur.



### Gecə işi infarktın dostudur

”British Medical Journal”da yayımlanan bir araşdırmaya görə isə gecələr işləyən insanlarda infarkt riski yüksəkdir. 34 araşdırmanın ümumiləşdirilmiş nəticəsinə görə Kanadada 2010-2014-cu illər arasında infarkt hallarının 7 faizi, ifliclərin 1.6 faizinin, qandamar problemlərinin 7.3 faizi gecə növbələrində işləyənlər arasında qeydə alınıb.

İşdə baş verən qəzaların əksəriyyəti də məhz gecələr olur. Kiçik bir araşdırma etdik, məlum oldu ki, Travmatologiya Mərkəzinə qəzalarla bağlı müraciət edənlərin əksəriyyəti gecə növbələri zamanı qəza keçirənlər olur. Normal yuxu yatmayan, yarımürgülü işçilərin diqqətindən qaçan kiçik bir detal böyük faciələrə yol aça bilir. Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalarına görə isə gecə növbətçiliyi depressiya yaradan əsas səbəblərdən biridir.

Dünyada bu yöndə aparılan bütün araşdırmalar görə gecə növbəsində işləmək insan beynini tez qocaldır, bu da dolayısı ilə ağlını, yaddaşını tez itirməyə səbəb olur. Fransada 3 min insan üzərində aparılan elmi təcrübə də bunu təsdiqləyir. Könüllülərin sürətli düşünmə, qərar vermə qabiliyyəti və yaddaşı yoxlanılıdıqdan sonra məlum oldu ki, gecələr işləyənlərin normal iş saatlarında işləyənlərə nisbətən yaddaşı, çevik qərar vermə qabiliyyəti zəifdir. Doğrudur, beyin də təbii olaraq insan yaşlandıqda yaşlanır, amma gecə növbəsində işləyənlərin beyni ikiqat sürətlə yaşlanır və bu ağlını itirmə, ciddi yaddaş pozuqluqları ilə müşahidə olunan alzeymer xəstəliyinə təkan verir. Araşdırma zamanı məlum olub ki, gecə növbəsində işləyənlər beyinlərinin imkanı özlərindən 6-7 yaş böyük insanların beyin imkanı ilə eynidir.

### Orqanizm məcbur ediləndə

Bugünədək gecə növbəsinin xərçəngə, diabetə, infarkta səbəb olması ilə bağlı bir çox elmi araşdırma aparılıb. Amma insanın bədənində molekulyar dəyişikliyə səbəb olması faktı yeni aşkarlanıb. İnsan onqanizminin normal, təbii tələbatlarına uyğun yuxu, qidalanma, dincəlmə və işləmə sırası var, bu sıraya əməl etmədikdə təbii ki, bir çox sağlamlıq şikayətləri olacaq. İnsan günəşlə birlikdə oyanıb işləməli, hava qaraldıqda isə istirahətini etməlidir. Əksi olduqca orqanizm çaşır, gecə ilə gündüzü səhv salır.

Yuxusuzluq orqanizmə ciddi zərərlər vurur, normal yuxu yatmayan insanlarda bədən temperaturu dəyişir, çevik hərəkətləri tədricən azalır, düşüncə və analiz qabiliyyəti zəifləyir. Türkiyənin məşhur Yuxu Araşdırma Mərkəzinin bu sahədə apardığı araşdırmalar da bunu təsdiq edir. 22 nəfər gecə növbəsində işləyən könüllü üzərində aparılan araşdırmalar sübut etdi ki, oranizm gecələr işləməyə məcbur edildikcə müxtəlif dəyişikliyə məruz qalır. Qan testlərinə görə genlərin 6 faizi günün bəlli vaxtlarında daha aktiv və ya daha passiv formada işləməlidir, amma qeyrinormal yuxu bu genlərin 97 faizinin ahəngini pozur. Qeyd edilir ki, orqanizmdə hər genin öz ritmi var, bu ritm pozulduqda əsəb, depressiya kimi ciddi narahatlıqlar əmələ gəlir. Bu da gecələr işləyənlərin orqanizmində yarana biləcək problemlərdən xəbər verir.

### Gecələr işləyirsiniz, zob xəstəliyinə də hazır olun

İsveç alimlərinin son araşdırması isə gecələr işləyənlərin zob xəstəliyindən daha çox əziyyət çəkdiyini deyir. 20 yaşından gecə işinə başlayan və ən az 3 il işləyən insanlarda zob riski gündüz işləyən yaşıdlarına nisbətən 50 faiz artır.16-70 yaşlı 13 min könüllü üzərində aparılan araşdırma gecə növbəsinin insanda ürək, qan-damar, xərçəng kimi xəstəlikrə səbəb olduğu faktını təsdiqləmiş oldu.

Ümumiyyətlə, növbəli iş insanda bioloji saatı pozur, təbii tələbatların süni halla ödənməsinə yol açır. İnsan normalda səhər tezdən oyanmalıdır, amma gecə növbəsində işləyənlər səhərlər yatmağa hazırlaşır. Normal insan orqanizmi səhər günəşini, sübh oksigenini tələb edir, amma gecə növbəsində işləyən pəncərəsinə qara pərdələr çəkilmiş qaranlıq otaqda yatmağı seçir. Gündüzlər işləyən insanlar işdən sonra kiçik gəzintini, idmanı seçir, gecə növbəsində işləyən insanlar isə işdən sonra dərhal yatır, axşamadək yataqda olur, sonra isə gecə növbəsinədək gününü televizorun qarşısında keçirir. Buna görə də gecə növbəsində işləyənlərdə piylənmə kimi problem də geniş yayılıb. Üstəlik, günəşlə az təmasda olduğu üçün bu insanlarda D vitamini əskikliyi müşahidə edilir, D vitamini çatışmazlığı isə beyinin öz funksiyasını yerinə yetirməsinə mane olur.



***Lalə Mehralı***

# Bakcell ”Formula 1 Azərbaycan Qran Prisi”nin rəsmi dəstəkçisidir

**Bakcell Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) ilə ”2023 Formula 1 Azərbaycan Qran Prisi”nin rəsmi dəstəkçisi olmasına dair müqavilə imzalayıb. Abunəçilərinə ultra-sürətli internet vasitəsilə ən innovativ xidmətlərdən yararlanmaq imkanı yaradan Bakcell bu dəfə yüksək sürətdən zövq alan Formula 1 azarkeşlərini sevindirəcək.**

”Azərbaycanın ən sürətli mobil şəbəkəsi olan Bakcell Formula 1 təqviminin ən sürətli şəhər treklərindən olan Bakı Şəhər Halqası ilə tərəfdaşlıqdan məmnundur. Əminəm ki, bu tərəfdaşlıq Formula 1, avtoidman və yüksək sürət həvəskarları üçün faydalı və əyləncəli olacaq”, deyə Bakcell şirkətinin baş icraçı direktoru Klaus Müller bildirib.

Tərəfdaşlıq çərçivəsində ”Formula 1” yarışlarındakı Azneft tribunası ”Bakcell” adlandırılıb. Tribuna ərazisində yerləşən istirahət və əyləncə zonasında azarkeşlər ”Bakcell”in ultra-sürətli şəbəkəsini sınaqdan keçirmək, həmçinin, müxtəlif oyun və əyləncələrə qatılmaq imkanı əldə edəcək.

Bundan əlavə, şirkət yarış günlərində ”Bakcell” tribunası yaxınlığında yerləşən əyləncə zonasında öz məhsul və xidmətlərini Azərbaycan Qran Prisinin tamaşaçılarına nümayiş etdirəcək.

Bakcell şirkəti Formula 1 yarışı zamanı abunəçiləri yüksək keyfiyyətli səs və internet xidməti ilə təmin etmək üçün Bakının mərkəzində, xüsusilə yarışların keçiriləcəyi ərazilərdə mobil şəbəkənin tutumunu yüksək dərəcədə optimallaşdırıb. Yarış zamanı mobil xidmətlərin istifadəsində yaranacaq iri həcmli trafik tələblərini qarşılamaq üçün Dənizkənarı Bulvar ərazisində əlavə müasir mobil baza stansiyaları quraşdırılıb. Bundan əlavə, xüsusi təyin edilmiş personal tərəfindən yarış ərazisində 24 saat ərzində şəbəkəyə və digər texniki məsələlərə nəzarət aparılacaq. Həmçinin, Bakcell Məlumat Mərkəzi də 24 saat ərzində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Qeyd edək ki, 2019-cu ildə Bakcell ”Formula 1 Azərbaycan Qran Prisi”nin ilk rəsmi dəstəkçisi olub.




”NEQSOL Holding”in tərkibinə daxil olan Bakcell Azərbaycanda VoLTE və eSIM texnologiyalarını tətbiq edən ilk mobil operatordur. 2023-cü ilin əvvəlində şirkət Bakının seçilmiş ərazilərində 5G-nin sınaq tətbiqini elan edib. Bakcell şəbəkəsi Ookla® tərəfindən ”Azərbaycanın ən sürətli mobil şəbəkəsi” kimi tanınıb.

# Əsl erməni faciəsi: küsülü həmsədrlər, qorxmuş Paşinyan və yaramaz sabiqlər





**Ermənistan rəhbərliyi özünü geosiyasi dalana saldığının fərqində olduğundan, vurnuxaraq çıxış yolu aramağa başlayıb. Nikol Paşinyan hamını və hər kəsi suçlayır, kənarda dəstək arayır, siyasi məhvini triumfa çevirməyə çalışır. "Təsəvvür edin ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri bir-biri ilə danışmırlar. Bu qrup çərçivəsində danışıqlar və ya müzakirələr aparmaq mümkünsüz işə çevrilib. Onlar deyirlər: "Onunla danışmayacağam, bununla bir masa arxasına oturmayacağam". Ermənistanın hakimiyyət dairələri nəyi necə etsinlər ki, Minsk Qrupunun həmsədrlərini bir masa arxasına oturda bilsin?! Mən bilmirəm".**

Ermənistanın baş naziri Nikol Paşinyan ölkə müxalifətçilərinin, ələlxüsus da parlamentdəki müxalifətçi deputatların "İrəvan niyə Minsk Qrupu çərçivəsində danışıqları bərpa etmir?" sualını, daha doğrusu, ittihamı cavablayarkən belə deyib. Daha sonra o, Ermənistanın əvvəlki hakimiyyəti dövründə Qarabağla bağlı Azərbaycanla aparılmış müzakirələrdən və danışıqlardan bəhs edib.

Onun açıqlaması yetərincə maraqlı olduğundan olduğu kimi təqdim edirik: "Mən müxalifətdə olanda hakimiyyət mənsubları ilə görüşür, Qarabağ məsələsini, danışıqları müzakirə edirdik. İlkin təəssürat belə idi ki, sanki o insanlar bizi bisavad, sadəlövh sayırdılar. Axı nə üçün Azərbaycanla aparılan danışıqların nəticələri barədə görüşlər vasitəsilə məlumat almalıydıq? Bəyəm Ermənistan dövlət deyil? Harada idi XİN-nin qeydə aldığı danışıqların gedişatı?! Bir-iki kağız tapdıq, onları yapışdırdıq, vəssəlam. Necə olur ki, Serj Sarqyan yanıma adamını göndərib evi ilə bağlı məsələnin həllini xahiş edir? Bəyəm Qarabağ məsələsində filan nüansın filan olması ilə bağlı xəbər yollaya bilməzdi? Özünü Dağlıq Qarabağın "prezidenti" elan etmiş Bako Saakyan aylarla, illərlə yanıma kofe içməyə gəldi. Heç olmasa adi kağız parçasında, imzasız xəbər yollayardı danışıqların gedişatından.

Deyəsən, Vardan Oskanyan, o vaxtkı xarici işlər naziri, həmin zamanda nə isə deməliydi. Qoy, indi desin. O danışır ki, "Ya 5, ya 7, ya 4, ya da 3 rayonu ver" söyləməli imiş. O vaxt deyərdi də! Açıq-aşkar deyərdi ki, "torpaqları qaytarmalıyıq!" Niyə demirdilər? Axı niyə indi müxalifətçilər deyir ki, "Paşinyan Qarabağı təhvil verməyə gəlib" Halbuki, deməlidirlər ki, "Budur, nəhayət, legitimsən sən, torpaqları qaytar!"

Göründüyü kimi, Nikol Paşinyan Azərbaycanla aparılan danışıqlar prosesində İrəvanın yaratdığı süni manеələri, yekun sülh sazişinin imzalanmasına gedən yolu mümkün qədər uzatmağa çalışmasını fərdi davranışı yox, az qala Robert Köçəryan və Serj Sarqsyanın hakimiyyətinin qalığı, siyasi rudimenti kimi qələmə verməyə çalışır.

44 günlük İkinci Qarabağ Müharibəsinin başa çatdığı gündən rəsmi İrəvanın yürütdüyü siyasət bitmək bilməyən oyunbazlıq, siyasi tələkəlikdir və yeganə məqsəd Bakı ilə sülh sazişini imzalamaqdan yayınmaqdır. Ermənilərin reallaşdırmağa çalışdıqları sxem çox bəsitdir.

Nikol Paşinyan ilk əvvəl ya ölkə mediasına açıqlamalarında, ya da çıxışlarında "münaqişənin tam və yekun həllinə yönəlmiş sülh danışıqlarını davam etdirmək əzmi"ndən bəhs edir. Beləcə, kollektiv Qərbdə və ermənilərdə yanlış rəy formalaşmağa başlayır ki, sən demə, Ermənistan rəhbərliyi müsbət davranır, yekun sülh sazişinin imzalanmasına yönəlmiş proses aktivləşir.

Lakin az sonra əvvəlcə Ermənistan XİN-indən, daha sonra ölkə parlamentindən və Təhlükəsizlik Şurasından aqressiv ritorikalı bəyanatlar, Azərbaycana qarşı absurd iddialar və az qala hədələr səslənməyə başlayır. Sonrakı açıqlamaların məzmunu iki il yarımdır ki, fərqlənmir: "Rəsmi Bakının yürütdüyü siyasət dayanıqlı sülhün əldə edilməsinə mane olur".

Sonda Paşinyan komandasındakı bir neçə deputat danışır və məlum olur ki, rəsmi İrəvan sülh gündəmində maraqlı deyil. Nikol Paşinyanın çıxışından uzun-uzadı iqtibas gətirməyimiz səbəbsiz deyil.

Ermənistanın baş naziri "sabiqlər"i, yəni Robert Köçəryan və Serj Sarqsyan iqtidarlarını "həqiqəti xalqdan, xüsusilə də müxalifətdən gizlətmək"də və "sülh danışıqlarının gedişatını sürətləndirməkdə maraqlı olmamaqda" suçlasa da, özü həmin bədnam "komanda"ların siyasətinin alqoritmini bütünlüklə təkrarlayır.






Belədirsə, Nikol Paşinyanın bəyanatlarına və açıqlamalarına inanmaq çətindir: rəsmi İrəvanın siyasəti real işlərə yox, fəaliyyət görüntüsünün yaradılmasına yönəlib.

Ermnistan rəhbərliyi Azərbaycanla danışıqlardan danışır, "Qarabağ Azərbaycan ərazisidir" deyir, amma bununla yanaşı qonşu ölkədə revanşist təmayüllər sürətlə güclənir, İrəvandan Xankəndində silah-sursat və canlı qüvvə göndərmək cəhdləri artır.

Nikol Paşinyan yaranmış situasiyalardan faydalanmağa çalışaraq görüntülər yaradır və belə mimikriya siyasəti ilə məqsədlərinrə çatmağa çalışır. Onun bəyanatları və açıqlamalarının söz yığını olmadığını Bakının təklif etdiyi 5 məlum şərt əsasında Ermənistanın sülh sazişini imzalamasından sonra təsdiqləmək olar. Həmin vaxtadək Ermənistan rəhbərliyinin sözlərinə zərrə qədər inanmağa dəyməz.

***Elçin Alıoğlu***



Təhmasib Novruzov

# İçi göynəyən "soğanyemişlər"

Aprelin 23-də Azərbaycan xalqı növbəti tarixi addımı reallaşdırdı - uzun müddətdi haqqında danışılan Azərbaycanın bədnam qonşularla sərhədində nəzarət-buraxılış məntəqəsi qoyuldu. Heç şəbhəsiz, bu, Azərbaycan diplomatiyasının, iqtidarın təmkinli və məqsədyönlü siyasi gedişlərinin və ordumuzun tarixi nailiyyətləri sırasına daxil olan önəmli hadisədir. Gözlənildiyi kimi, hətta gözlənildiyindən yüksək bir həyasızlıqla özlərini dünyada haqq-ədalət müdafiəçisi adlandıran bəzi güclər ampulalarından da yuxarı reaksiya verməklə, yenə dırnaqarası "ədalətli mövqe" nümayiş etdirdilər. Qəribədir, vallah. Əslində qəribəliyi o deyil ki, niyə bu güclər ermənipərəst mövqe tutdular, bunun səbəbini də bilirik (az sonra o səbəbə də atüstü toxunacağıq-T.N.), məqsədini də. Bilmədiyimiz və bizlərə qəribə gələn orasıdır ki, özlərini dünya gücü hesab edən bu bizdeyənlər, heç olmazsa özlərinin hegemonluğu ilə qəbul edilən beynəlxalq hüquqi sənədlərə qarşı çıxmalı deyildilər. Və əgər bu hüquq normalarını onlar dünyaya qəbul etdiriblərsə, o zaman özləri onu hansı ağılla və hansı məntiqlə ayaqları altına alıb tapdalayırlar? Dünyada kimsə elə bir hüquqi sənəd göstərə bilərmi ki, bir ölkə öz suveren ərazisində, sərhəddə nəzarət-buraxılış məntəqəsi təsis etmək üçün kimdənsə icazə almalıdıl? Varsa, misder..., müsyo..., qospadin..., buyurub göstərsinlər. Göstərə bilmirlərsə Azərbaycanın həm beynəlxalq hüquqa, həm də ölkə Konstitusiyasına uyğun şəkildə atdığı bu addıma nədən belə dodaq büzürlər? Bəyəm bu bizdeyənlər otuz ildi torpaqlarımızın işğalı, bir milyondan artıq insanın yurd-yuvasından didərgin salınması, bir şəhərin əhalisinin qocalı, uşaqlı, qadınlı soyqırıma məruz qoyulması, iki Livan boyda ərazinin yerlə-yeksan edilərək xarabazara çevrilməsi, orduya gücü çatmadığından qadağan edilmiş kütləvi qırğın silahları ilə, raketlərlə dinc əhalinin gecə yarısı atəşə tutulması və sadalamağa səbrimiz çatmayan yüzlərlə digər faktları görmürdülərmi? Kordulara, görmürlərsə, zəhmət çəkib gözlərini müalicə etdirsinlər, görür, görməzdən gəlirlərsə, dönüb vicdanlarına (əgər varsa-T.N.) nəzər salsınlar. Lap deyək ki, sadaladıqlarım 44 günlük Vətən müharibəsindən əvvələ və ya müharibə dövrünə aid faktlardı, Azərbaycan da bütün bunların qisasını artıqlamasilə aldı və almaqda davam edir. Deyək ki, indi sülh sazişi bağlanmaq ərəfəsində bu addıma qırmızı-qırmızı belə reaksiya verirlər. Bəs çox da uzaqda yox, elə bu il aprel ayının 11-dən 23-dək hayların törətdikləri əməllərə niyə səslərini çıxarmadılar? Hələ müəyyən edilməmiş sərhəddə erməni tərəfin istehkam qurmasına haqlı etiraz edən Azərbaycan tərəfin əsgərlərinə atəş açıb, qətlə yetirən bəlkə sülhə xidmət edib? Yaxud, 2021-2022-ci illərdə, yəni kooputilyasiya aktına imza atandan sonra istehsal edilmiş minaları həmin yol vasitəsilə, rusiyanın sözdə "SÜLH" ,əslində "SAVAŞ" məramlı qüvvələrinin dəstəyi ilə gətirib ərazilərimizə basdırmaları, dinc əhalinin və hərbçilərimizin həyatlarına qanunsuz qəsd etmələri beynəlxalq hüquqa uyğundur? Nəhayət, məhz Ermənistanın öz tərəfində nəzarət-buraxılış məntəqəsi açdığını görüb, onunla qarşılıqlı öz sərhədində adekvat addım atdığı halda, nədən yenə Azərbaycan hədəfə alınır? Suallar çoxdu, cavab isə yoxdu və olası da deyil. Niyə? İndi gələk həmin "niyə"yə, yəni güc mərkəzlərinin sərgilədikləri mövqenin əsil səbəbinə.

Bizim bəzi siyasi şərhçilər bu vəziyyəti xristian təəssübkeşliyi ilə əlaqələndirməyə çalışırlar. Məncə belə yanaşma doğru deyil. Dini təəssübkeşlik olsaydı, o zaman fars-molla rejimi erməniləri, iudist İsrail, xristian İtaliya isə Azərbaycanı müdafiə etməzdilər. Mənim düşüncəmə görə bu münasibətlərin kökü Türkiyə və türk dünyası ilə birbaşa bağlıdır. Fars-molla rejimini də, Ermənistan adlanan qondarma dövləti də türk dünyasının ortasında yaradıb bəsləyən həmin güclər tarixi gedişlərin real məntiqi nəticəsi olaraq türkün özünə qayıdışından o qədər əndişəlinirlər ki, gözlərinə özlərinin qəbul etdikləri beynəlxalq hüquqi aktlar belə görünmür. Qədimlərə getmədən, son min ildə qeyd-şərtsiz türklərin dövlət ərazilərində yaradılan və İran, Ermənistan adlandırılan layihə-dövlətləri qorumaqla türkün güdrətini zəiflədəcəklərini düşünür və siyasətlərini də bu strategiyaya uyğun qururlar. Yəni, bu güclər çox acı soğan yeyiblər, indi nə onu qaytara (oxu: qusa-T.N.) bilirlər, nə də uda bilirlər. Odur ki, içləri göm-göm göynəyir və bu göynərtinin də ağrısını belə-belə bəyanat-flanlarla çıxarmaq istəyirlər. Hesab edirlər ki, belə bəyanatlar türkü haqq yolundan döndərə bilər. Zavallılar hələ də dərk eləmirlər ki, tarixin gedişini dəyişməyə rəbbimdən başqa kimsənin gücü yetməz. Rəbbim labirintləşmiş dünyanı düzənə qaytarmaq üçün yenidən türkün gücünə güc qatmağa qərar veribsə, firon nəvələrinin indiki cabalarının da sonu elə fironların sonu kimi olacaq.

# Fransızsayağı nonsens



**Makronlu Fransanın son vaxtlar hətərən-pətərən vurması adi hal alıb. Sanki bu ölkədə bir ağıllı yoxdur, nə beynəlxalq hüquq, nə ölkələr arasında münasibətlər, nə ölkələrin ərazi bütövlüyünə hörmət tanımırlar. Hüquq anlayışından başı çıxan isə heç yoxdur. 23 aprel 2023-cü il tarixində Azərbaycan tərəfi Laçın-Xankəndi yolunun başlanğıcında, Azərbaycan-Ermənistan sərhədində sərhəd nəzarət-buraxılış məntəqəsi təsis etdi.**

Hadisə Azərbaycanın suveren ərazilərində baş verdi, Ermənistan adlanan dövlətə məxsus torpaqlarda, yaxud Paris yaxınlığında yox. Və Fransanın Avropa və Xarici İşlər Nazirliyinin mətbuat katibi Ann-Kler Lejandr tərəfindən əsassız, heç bir məntiqə uyğun olmayan bəyanat verildi, təbii ki, Xarici İşlər Nazirliyimiz tərəfindən payını da aldı.

XİN-in Mətbuat Xidməti İdarəsinin rəisi Ayxan Hacızadə açıqlamasında bildirdi ki, Azərbaycan tərəfindən öz suveren ərazisində sərhəddə nəzarət-buraxılış məntəqəsi təsis etməsi ölkəmizin suveren və legitim hüququdur: ”Guya bu addımın Üçtərəfli bəyanata, hər hansı bir beynəlxalq sənədə və ya məhkəmə qərarına zidd olduğu iddiasının heç bir əsası yoxdur. Azərbaycan hər zaman olduğu kimi, öz öhdəlikləri çərçivəsində Laçın-Xankəndi yolunda hərəkət edən vətəndaşların, nəqliyyat vasitələri və yüklərin təhlükəsizliyinə zəmanət verir və bu istiqamətdə müvafiq tədbirləri davam etdirəcək.

Kiçik, həm də əsaslı bir haşiyə çıxaq. Həm Fransanın, həm də digər beynəlxalq dairələrin məkrli oyunları göz qabağındadır. Bir tərəfdən ATƏT-in Minsk qrupunun digər iki həmsədr ölkəsi Rusiyanın təkbaşına iştirakı ilə müharibə tərəfləri arasında imzalanan Üçtərəfli Bəyannaməni tanımadıqlarını deyirlər, digər tərəfdən isə məqamı gələndə bu sənəddən yararlanırlar. Fransa və ABŞ-ın, eyni zamanda Avropanın bəzi rəsmi dairələri, senator və deputatları guya Azərbaycanın adıçəkilən Bəyannamənin şərtlərini pozduğunu əsas gətirərək üzərimizə gəlməyə çalışırlar. Hansı şərtlərindən söhbət gedir? Məgər münaqişənin digər tərəfi - Ermənistan Üçtərəfli Bəyannamənin hansısa şərtinə əməl edibmi?















Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putin, Ermənistanın isə baş naziri Nikol Paşinyan arasında imzalanan Bəyannamənin 4-cü bəndində deyilir: ”Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir”. İndi gəlin reallığa baxaq. Ermənistan və Qarabağdakı separatçılar açıq şəkildə etiraf edirlər ki, Rusiya Federasiyasının sülhməramlı kontingentinin nəzarət etdiyi ərazilərdə ”özünümüdafiə dəstələri var və onların sayı 12 mindən(!?) çoxdur. Bu, üçtərəfli Bəyannamə imzalanan gündən belədir. Deməli, nə Ermənistan, nə də Rusiya Sülhməramlı Kontingent şərtlərə əməl etməyib. Digər bir maddədə göstərilir: ”Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır”. Buna necə, əməl edilibmi? Yox. Sülhməramlıların əraziyə yerləşməsi üçün vacib şərtləri Rusiya tələsik yerinə yetirdi və Ermənistana qaçan separatçıları avtobuslarla yenidən Azərbaycan ərazilərinə yerləşdirməklə özünün fəaliyyət göstərməsi, Qarabağda qalmasını şərtləndirən məsələni həll etdi. Əks təqdirdə Rusiyanın sülhməramlı missiyası fiaskoya uğrayacaqdı. Yəni Rusiyanın ”müdafiə” edəcəyi kiminsə Qarabağda olması lazım idi. Məskunlaşma Azərbaycanlı məcburi köçkünlərə də şamil olunmalı idi. Baxmayaraq ki, sənədin müvafiq məndində bu barədə yazılmışdı, amma hələ də Rusiya sülhməramlılarının müvəqqəti nəzarət bölgəsində bir nəfər də olsun azərbaycanlı yoxdur.

Başqa bir maddədə qeyd olunur ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Başqa sözlə desək, tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdi.

Belə görünür ki, üçtərəfli Bəyannamənin şərtlərinə yalnız Azərbaycan əməl etməli imiş. Ermənistanın nə imzası, nə də öhdəlikləri isə heç kimin yadına da düşmür. Azərbaycanın son addımları isə Bəyannamənin şərtlərinə qarşı deyil. Rusiya sülhməramlıları Laçın yolunu və ermənilərin yaşadığı əraziləri nəzarətdə saxlamalı, burada təhlükəsizliyi təmin etməli idilər. Sərhəd isə Azərbaycana məxsusdur, onu sərhədçilər qorumalıdır. Sülhməramlılar isə sərhəddən sonrakı ərazilərə nəzarət etməlidirlər.

Atalar məsəlidir, xain xoflu olar. Azərbaycan Həkəri çayı üzərində olan körpüdə sərhəd keçid məntəqəsi yaradıb ki, bu da bizim suveren haqqımızdır. Ermənistandan yüklərin daşınmasına kimsə etiraz etmir, əlbəttə yüklər qanunidirsə və qəbul edilmiş norma və prinsiplərə uyğundursa. Yoxsa Azərbaycan sərhədin bu hissəsini tam bağlamayıb. Əgər ermənilər normalar çərçivəsində yükləri daşımağa davam edəcəklərsə heç bir sıxıntı yoxdur. Amma görünür, Ermənistan bundan sonra qanunsuz əməllərini davam etdirə bilməyəcəyini anladığı üçün haray, həşir salır.

Fransalı və amerikalı bəzi deputatlar və senatorlar isə məntiqsiz davranışları ilə özlərini və ölkələrini ifşa ediblər. Onlar qanunsuz yüklərin bundan sonra daşınmasına son qoyulduğunu anladıqları üçün ən son addımlarını realizə etmək həvəsindədirlər, ”Qarabağın müstəqilliyini tanımaq”. Təbii ki, iki fərsiz, həm də uğursuz senatorun boşboğazlışı, hətərən-pətərəni ilə başqa dövlətin ərazisində yeni dövlət qurula bilməz. Azərbaycanın timsalında buna yalnız xalq razılıq verə bilər, Fransanın senatoru Korsika problemi ilə məşğul olsa yaxşıdır...

***V.VƏLİYEV***

# Kabab qanlı, igid canlı?

*Kabab igidi canlı etmir, insanı xəstə edir*

Bu günlərdə iştirak etdiyim bir məclisdə 6 aylıq bir körpənin əlində bir tikə kabab gördüm. Yeni çıxardığı dişləri ilə əti didişdirən körpənin anası isə gülə-gülə əlindəki mobil telefonu ilə onu lentə alırdı. Gənc anaya etirazımı bildirəndə ”heç nə olmaz, 40 günlüyündən küftə yeyir qızım” dedi. Gənc nəsil demiş, ”mən şok, mən iptal”...

## Hər gün bir tikə kabab...

Tanınmış rus qastroenteroloq Olqa Listopadova və dünyaca məşhur rus aşbaz Dmitri Voloçayevin birgə müsahibəsini oxudum bu günlərdə. Hər ikisinin fikrinə görə qaynamamış ətin bol istehlakı qaraciyər, öd kisəsi, mədəaltı vəzi xəstəliklərini kəskinləşdirə bilər. Dmitri Voloçayev tərəvəzlərin kababının sağlamlıq üçün ən faydalı olduğunu, tərkibində vitaminlər, minerallar, antioksidantlar və lif olduğunu bildirir. Əgər imtina edə bilmirsinizsə yalnız ekoloji olduğuna güvəndiyiniz toyuq ətininn kababını yeməyin daha məqsədəuyğun olacağını deyən qastreneoloq isə bunu sıx-sıx yeməməyin tərəfdarıdır.

Yuxarıda qeyd etdiyim o körpənin gələcəkdə bir neçə cür xəstəlikdən əziyyət çəkməsinə səbəb olan o kabab (əslində, anası) barədə isə çox araşdırma var. Bişərkən hansı vasitədən istifadə edilməsi, qaynamadan bişirilməsi zamanı ətin tərkibində insan orqanizminə təhlükə yarada biləcək bakteriyaların qalması bu araşdırmalarda qeyd edilir.

Xüsusilə müsəlman xalqlarının ən sevdiyi yeməklərdən biri olan kabab insan orqanizminin düşmənidir. Mədə xərçənginə səbəb olan kabab barədə araşdırmanı yekunlaşdıran türkiyəli mütəxəssislər bildirirlər ki, manqala bişən ət, sosis, ciyər bir çox təhlükəli xəstəliyin təməlini qoyur.

Bildirilir ki, həftədə 1 tikə kabab yemək 3 qutu siqaret çəkməyə əvəzdir. Hər ikisi xərçəngə eyni dərəcədə yol açır. Türkiyədə hər il keçirilən Qastrontologiya Həftəsi çərçivəsində insan qidası olmayan kabab barədə uzun-uzadı danışan qastroloq həkimlər sağlam qidalanmanın, çox yaşamanın düşməni olan kababdan uzaq durmağı tövsiyə edirlər.

Siqaret, alkoqol və narkotikanın istifadəsi zamanı mədəyə vurulan zərər həmçinin kabab yeyildikdə də baş verir. Ət istehlakını yalnız qaynadılmış halda məsləhət görən həkimlər deyir ki, qətiyyətlə kababdan imtina etmək lazımdır: ”Ət qaynadılmadan birbaşa ocaqda bişirilirsə onu yemək təhlükəlidir. Bundansa elə gündə 3 qutu siqaret çəkə bilərsiniz, çünki ikisi də eyni dərəcədə zərər verir”.

## Əgər bir həkim kabab yeyirsə



Əti menyusundan çıxara bilməyənlərə qaynadılmış formada yeməyi məsləhət görən həkimlər deyir ki, mədə xərçəngindən qorunmaq üçün ət istehlakını minimuma endirmək lazımdır: ”Kabab bişəndə birbaşa oda yaxın olur, çox vaxt barbekü sobalarında odunla deyil, təhlükəli qazlar yaradan yanacaq növləri ilə bişirilir, qaynamadığı üçün tərkibində olan mikroblar da ölmür, xüsusilə ürək və hormonlarda ciddi fəsadlara səbəb olur. Əti sevirsinizsə qaynatdıqdan sonra yeyin. Manqalı yavaş-yavaş həyatınızdan çıxarın. Əgər siz nə zamanda bir həkimin kabab yediyini görsəniz bilin ki, o həkim əslində insane sağlamlığı barədə heç nə bilmir”.

Azərbaycanda da ət insanların əsas qida vasitəsidir. ”Bir gün ət yeməyəndə özümü ac hiss edirəm”-deyənlərdən yəqin ki, indi bu məqaləmizi oxuyanlar da var. Ət yeyəndə sizə elə gəlir ki, yediyiniz sizə güc verir, orqanizminizi mohkəmləndirir. Həkim Sabir Əsgərov isə bildirir ki, bu güclənmə ətin həzminin verdiyi ağırlıqdır: ”Əgər qatıq yesəniz tez acacaqsınız, çünki qatıq insan mədəsində dayanmır, dərhal həzmə gedir. Amma tutaq ki, kabab yemişik, ən azı yarım gün özümüzü tox hiss edirik. Çünki ət insan mədəsində 6-7 saata həzm olunur, bu müddət ərzində mədə dolu olduğu üçün aclıq hiss etmirik, amma mədənin çəkdiyi əziyyəti ki, hiss edirik. Əti yeyib üstündən qazlı su içənlər var ki, ət həzm olsun. O qazlı su da ətin vurduğu qədər zərər vurur”.

## Qaynatmadan əsla!

Sabir Əsgərov da əti qaynatmadan yeməyi təhlükəli hesab edir: ”İndi əksər heyvanların ətində çox sayda təhlükəli mikrob və bakteriyalar olur ki, bunlar da kabab, dönər, kolbasa, qızartma kimi yeməklərlə orqanizmə keçir. Bu bakteriyalardan 4-ü hətta qaynadıqda belə ölmür. Üstəlik əti çeynəyən dişlərə də çox yük düşür”.

Həkim bildirir ki, əgər mədəmizdə meyvə-tərəvəz yarım saata, düyü 1 saata, yumurta və yulaf yarması 1 saat 20 dəqiqəyə, təzə süd 2 saat ərzində həzm olursa, ət 5-6 saata həzm olur, bu zaman qan damarlarımız korluq çəkir, axı xeyli vaxt lazımdır ki, mədəyə düşmüş yağlı ət həzm olunsun, yoğun bağırsağa tökülsün və qana sorulsun: ”Üstəlik yoğun bağırsağa düşmüş ətin böyük hissəsi qana sorula bilmir və nəticədə uzun müddət orada qalaraq çürüyür. Bir çox təhlükəli xəstəliklər məhz bu prosesdən sonra qan vasitəsilə bütün bədənə yayılır”.

Həkimlə 6 aylıq körpəsinə kabab yedirən ana haqqında danışdıq: ”İnanmaq olmur ki, bu dövrdə bu cür analar var, 40 günlük körpəyə küftə-bozbaş yedirtmək, 6 aylıq uşağa kabab vermək nə deməkdir? Tədrici intihara sürüklənir körpə, anası da bu intiharı həyata keçirəndir. Ətin tərkibində külli miqdarda muxtəlif ekstraktiv, toksinlər, xolesterin və s. zərərli maddələr mövcuddur, üstəlik, 6-7 saat həzm olunmur, o körpənin mədəsinə hansı zərəri verdiyinin fərqində deyil ana”.

Kömürlə və gur odla qəfildən təmas edən ətin içindəki proteinin xarab olması və kömürdəki toksinlərin ətə hopması kababın insan qidası olmamasına yetərli səbəbdir. Bu qidanın mütəmadi qəbulu insan həyatı üçün təhlükədir, kömür alovunda bişən ət kanserogendir. Araşdırmalara görə bu cür ət yeyənlər qaynadılmış ət yeyən insanlara görə 60 faiz daha çox mədə xərçənginə tutulurlar. Ümumdünya Səhiyyə Təşkilatı ətin xərçəng, şəkər və digər xəstəliklərin əsasa yaradıcılarından biri olduğunu ?lan edib. Ümumiyyətlə, kababı sevənlər bilməlidirlər ki, ətin tərkibindəki parazit-yumurtalar insan orqanizmində qarşısı alınmaz fəsadlar əmələ gətirir. Bu gün qidanızı ehtiyyatla seçin, sabah xərçəng xəstələri siyahısına düşməmək üçün...

**_Lalə Mehralı_**

# Bir gündə yol qəzalarında 4 nəfər ölüb



Aprelin 24-də ölkə ərazisində qeydə alınan 38, əvvəlki dövrlərdən bağlı qalan 10 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, axtarışda olduğuna görə ümumilikdə 19, o cümlədən borclu şəxs qismində axtarışda olan 7 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 3 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 4 nəfər ölüb, 2 nəfər isə xəsarət alıb. Narkotiklərlə əlaqəli 12, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 14 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 34 nəfər saxlanılıb.

***Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir***

**İxtisas fortepiano kafedrası**
Professor
Professor, sənətşünaslıq namizədi
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar kafedrası**
Professor, fəlsəfə elmləri doktoru
Professor, sənətşünaslıq namizədi
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Musiqi tarixi kafedrası**
Professor, sənətşünaslıq namizədi

**Humanitar fənlər kafedrası**
Professor, elmlər doktoru

**Konsertmeyster ustalığı kafedrası**
Professor

***Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.***
***Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.***
***Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.***

# XƏBƏRDARLIQ:

## Bu gün yağıntılı hava gözlənilir

**Aprelin 26-na gözlənilən hava proqnozu açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 9-14° isti, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu olacaq. Nisbi rütubət 65-75 % olacaq.



Azərbaycanın rayonlarında əsasən yağmursuz. Lakin gündüz saatlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15° isti, gündüz 21-26° isti, dağlarda gecə 3-8° isti, gündüz 10-15° isti olacaq.

## BAŞSAĞLIĞI

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları (ABMA) rəhbərliyi və kollektivi Şirvan şəhər Bələdiyyəsinin sədri Kürdoğlu Muradova anası

**Sonabəyim Muradovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**